**Prezident İlham Əliyevin Vatikanda Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olub**



Bax 3

**AZƏRTAC-100: Bir əsrlik yola beş fərqli zaman nöqtəsindən baxış**



Bax 8

**Prezident vəzifəli şəxsləri İranla sərhədə göndərib**



Bax 5




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 037 (6002) 25 fevral 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "İtaliya səfəri Prezidentin xarici siyasət sahəsində növbəti uğurudur"

Bax 5



2020-ci ilin ilk ayları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət sahəsində zəngin fəaliyyəti ilə tarixə düşdü. Yanvar ayında Davosda Beynəlxalq İqtisadi Forumda iştirak edən, fevral ayında isə Münxen Təhlükəsizlik Konfransına qatılan Prezident İlham Əliyev, eyni zamanda çoxsaylı görüş və hadisələrlə müşayiət olunan İtaliya səfərini həyata keçirdi. Sadalananlar dövlətimizin...

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vatikanda Papa Fransisk ilə görüşüblər



Bax 2

Bax 5

## Təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq



Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, bu qurumun "Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planı"na əsasən tədris olunacaq dərslərdə şagirdlərə XX əsrin ən böyük faciəsi barədə ətraflı məlumat veriləcək, Vətənə məhəbbət hissləri təbliğ ediləcək...

## "Əsas məqsəd Xocalının beynəlxalq məhkəmələr müstəvisində soyqırımı kimi tanınmasına nail olmaqdır"

Bax 5



Xocalı faciəsinin beynəlxalq ictimaiyyətə təqdim olunması və onun soyqırımı aktı olaraq tanıdılması istiqamətində səylərimiz davam edir. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət...

## Qənimət Zahidə "Palma" zopası

Anormal müxalifətin, anormal ünsürlərdən ibarət olan bir ovuc toplumunun hər zaman əsas işləri əxlaqa, milli-mənəvi dəyərlərə, milli mentalitetimizə yad olan mövqe sərgiləmələridir...



Bax 14

## Rayan Giqqz Bakıya gəlib

Futbol üzrə "Avro-2020"nin A qrupunda Türkiyə və İsveçrə millilərinə qarşı oyunlarını Bakı Olimpiya Stadionunda keçirəcək Uels milli komandasının nümayəndələri Bakıda...

Bax 16



## DİQQƏT: Koronavirusa yoluxmamaq üçün bunlara mütləq əməl edin!

Bax 16

*"Bildiyiniz kimi, 2019-cu ilin dekabr ayından başlayaraq koronavirus dünyada yayılıb. Bütün dünyada bu xəstəliyə qarşı profilaktik tədbirlər həyata keçirilib. O cümlədən Azərbaycanda da Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən bütün profilaktik tədbirlər həyata keçirilir". Bu SİA-ya açıqlamasında Respublika Gigiyena və Epidemioliga Mərkəzinin Baş direktorunun müavini Afaq Əliyeva...*



**Sağlam qida, sağlam həyat, sağlam millət, sağlam cəmiyyət, sağlam gələcək**



Bax 7

**Vüqar Rəhimzadə: "Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib"**



Bax 7

**Mübariz Qurbanlı: "Azərbaycan dünyada nümunəvi bir ölkə kimi tanınır"**



Bax 5

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vatikanda Papa Fransisk ilə görüşüblər

***Fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vatikanda olublar. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Vatikanda rəsmi qarşılanma mərasimi oldu. Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşdülər.***



Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı salamlayan Roma Papası onların Vatikana səfərlərini və özünün 2016-cı ildə Azərbaycana səfərini xatırladaraq bu səfərdən məmnun qaldığını bildirdi.

Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, xalqımızın rifah içərisində yaşadığını qeyd edən Papa Fransisk ölkəmizdə dini icmalar arasındakı tolerant münasibətlərə toxundu. Bildirdi ki, dünyanın bir çox yerlərində gərginlik və münaqişələrin artdığı, bəzi dairələrin dini amildən istifadə edərək ədavəti və nifaqı daha da yaymağa





çalışdığı bir vaxtda Azərbaycan əsl tolerantlıq nümunəsidir.

Roma Papası Heydər Əliyev Fondu tərəfindən Vatikanda həyata keçirilən təmir-bərpa işlərini qeyd etdi, Azərbaycan hökumətinə, xüsusilə də Fondun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirdi. Vurğuladı ki, Vatikan Heydər Əliyev Fondu tərəfindən burada aparılan bərpa işlərini heç vaxt yaddan çıxarmayacaq. Çünki məhz Heydər Əliyev Fondunun layihələri sayəsində Vatikanda bir çox tarixi abidələrin, o cümlədən katakombaların bərpasına nail olunub.

Prezident İlham Əliyev dedi ki, Papa Fransiskin Azərbaycana səfəri dünyada sivilizasiyalar və dinlər arasında münasibətlərin daha da inkişaf etdirilməsində xüsusi rol oynayan ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu baxımdan bir çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edib. Ölkəmiz bütün dünyada dinlərin nümayəndələri arasında qarşılıqlı anlaşmanın, qardaşlıq və həmrəylik hisslərinin bərqərar olmasına çalışır və bu baxımdan dünyaya nümunədir. Azərbaycanın təqdim etdiyi tolerantlıq və birgəyaşayış nümunəsi dünyada münaqişələrin və toqquşmaların aradan qaldırılmasına xidmət edən əsas meyarlardan biridir.



Prezident İlham Əliyev Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında qurulmuş münasibətlər əsasında aparılan əməkdaşlığın daha da genişləndiriləcəyini vurğuladı. Daha sonra qarşılıqlı hədiyyələr təqdim edildi.

# Prezident İlham Əliyevin Vatikanda Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olub

*Birinci vitse-prezident Mehriban Əliyeva Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə layiq görülüb*





***Fevralın 22-də Vatikana səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olub.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı Roma Papasının 2016-cı ildə Azərbaycana səfərini qeyd etdi. Bildirdi ki, Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində fəaliyyətini fəal şəkildə davam etdirir. Prezident İlham Əliyev ötən il Bakıda Dünya dini liderlərinin II Sammitinin keçirildiyini bildirərək bu tədbirdə Vatikan nümayəndəsinin də iştirak etdiyini xatırlatdı.

Dövlətimizin başçısı ölkəmizdə etnik və dini baxımdan qarşılıqlı anlaşmanın olduğunu, müxtəlif dinlərin nümayəndələrinin dinc şəraitdə birgə yaşadıqlarını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə dinlərarası və mədəniyyətlərarası dialoqun, multikulturalizmin prioritet olacağını vurğuladı.



Kardinal Pietro Parolin Azərbaycan ilə Vatikan arasında xüsusi münasibətlərin olduğunu bildirdi. O, Papa II İohan Pavelin və Papa Fransiskin Azərbaycana səfərlərini xatırlatdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında mədəniyyətlərarası dialoqun, multikulturalizmin, həmçinin müsəlmanlar, xristianlar və yəhudilər arasında harmoniyanın möhkəmləndiyini vurğuladı. Pietro Parolin Azərbaycanın beynəlxalq münasibətlərdə çoxtərəfliliyə böyük əhəmiyyət verməsini təqdir etdiyini bildirdi. O, həmçinin Azərbaycanda Katolik Kilsəsinin fəaliyyəti üçün yaradılan şəraitin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bir daha diqqətə çatdırdı, Ermənistanın regionda destruktiv siyasət yürütdüyünü bildirdi. Dövlətimizin başçısı hazırda Ermənistan tərəfindən danışıqlar prosesinə xələl gətirən ziddiyyətli açıqlamaların verildiyini dedi və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, Helsinki Yekun Aktına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu vurğuladı.



Söhbət zamanı Azərbaycanın regiondakı rolu və qonşu ölkələrlə münasibətləri müsbət qiymətləndirildi.

Sonra kardinal Pietro Parolin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya Papa Cəngavər Ordeninin ən ali dərəcəsi olan IX Piy Ordeninin Böyük Xaçını (Dama di Gran Croce dell'ordine Piano) təqdim etdi.

Birinci vitse-prezident Mehriban Əliyeva bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb. Kardinal Pietro Parolin Mehriban Əliyevaya bu mükafatı təqdim etməkdən şərəf hissi keçirdiyini bildirdi.

**Birinci vitse-prezident Mehriban Əliyeva:**

-Kardinal həzrətləri.

Məni Müqəddəs Taxt-Tacın yüksək ordeni ilə təltif etdiyinizə görə sizə və Zati-müqəddəsləri Roma Papası Fransiskə dərin minnətdarlığımı bildirirəm. Bu, mənim üçün böyük şərəfdir.

Mən bu ordeni Vatikan ilə Azərbaycanın ikitərəfli münasibətlərinin yüksək səviyyədə olmasının daha bir təsdiqi kimi qiymətləndirirəm. Çox şadam ki, bu münasibətlərin möhkəmlənməsində mənim də töhfəm var. Səmərəli əməkdaşlığın qurulmasında əməyi olan hər bir insana, Vatikanda olan bütün dostlarıma, xüsusilə də kardinal Ravaziyə dərin minnətdarlığımı bildirirəm.

Bir daha yüksək təltifə, göstərdiyiniz qonaqpərvərliyə və səmimiyyətə görə sizə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**Kardinal Pietro Parolin:** Sağ olun Zatialiləri. Mən də şəxsən öz tərəfimdən bu jesti bizim artıq uzun illər ərzində aramızda təşəkkül tapmış bu münasibətlərin təzahürü kimi görürəm. Hesab edirəm ki, gələcəkdə ikitərəfli qaydada demək olar ki, bütün sahələrdə və xüsusən də mədəniyyət sahəsində Müqəddəs Taxt-Tacla Sizin ölkəniz arasındakı əlaqələri daha da dərinləşdirəcəyik. Şəxsən Sizi, Sizin həyat yoldaşınızı və bütövlükdə ölkənizi səmimi qəlbdən təbrik edirəm.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Çox sağ olun, təşəkkür edirəm.

Qeyd edək ki, IX Piy Ordeni 1847-ci ildə təsis edilib. Bu ordenlə kilsə və cəmiyyət qarşısında xidmətlərə görə təltif olunurlar. Böyük Xaç - dövlət başçılarına və yüksəkvəzifəli dövlət xadimlərinə təqdim olunan xüsusi dərəcədir. İtaliya Respublikasının hazırkı Prezidenti Sercio Mattarella, İtaliya dövlətinin bir sıra sabiq rəhbərləri, o cümlədən Corcio Napolitano, həmçinin tac qoyulmuş şəxslər - İsveç Kralı XVI Qustav, Lüksemburqun Böyük Hersoqu Anri, İspaniya Kralı Xuan Karlos və Belçika Kralı II Albert bu ordenə layiq görülənlər sırasındadır.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə İsrafil Mirzəhməd oğlu Qurbanovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan idmançılarının XXXII Yay Olimpiya və XVI Yay Paralimpiya oyunlarına hazırlığının və oyunlarda iştirakının təmin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında mülki aviasiya sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Sabir Gülmirzə oğlu İlyasovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Artur Tahir oğlu Rasi-zadənin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Tahir Musa oğlu Rzayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vatikanda Sikstin Kapellası və Müqəddəs Pyotr Kilsəsi ilə tanış olublar

***Fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Vatikanda Sikstin Kapellası və Müqəddəs Pyotr Kilsəsi ilə tanış olublar.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Heydər Əliyev Fondu tərəfindən hazırda Vatikanda bir neçə layihə həyata keçirilir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefi və Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsi Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bərpa edilir və artıq işlər başa çatmaq üzrədir. Bu işlərin bu ilin may ayında başa çatması planlaşdırılır. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında imzalanmış müqaviləyə əsasən hazırda "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin bərpası işləri aparılır və layihənin 2020-ci ildə başa çatması nəzərdə tutulur. 2016-cı ildə icrasına başlanan və 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Canfranko Ravazinin iştirakı ilə açılışı olan "Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombaların bərpası" layihəsi çərçivəsində son tamamlama işləri yekunlaşıb.













Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr müqəddəs Taxt-Tacda çox yüksək qiymətləndirilir. Bu işlər Fondun ümumbəşəri dəyərlərə verdiyi töhfələri bütün dünyaya nümayiş etdirir. Bununla yanaşı, bu layihələr həm də ölkəmizin müxtəlif dinlərin abidələrinə və müqəddəs yerlərinə verdiyi önəmi göstərir. Bütün bunlar isə multikultural dəyərlərə sadiq və bu dəyərləri təşviq edən ölkə kimi Azərbaycanın dünyadakı mövqeyini və yerini, həmçinin dinlərarası dialoqun qurulmasındakı rolunu möhkəmləndirir.

Qeyd edək ki, Sikstin Kapellasının yerləşdiyi bina Vatikanda Renessans dövrü italyan incəsənətinin ən görkəmli abidələrindən biridir. Qeyd olundu ki, 1481-1483-cü illərdə kapellanın divarlarına Musanın və İsanın həyatlarından səhnələr təsvir olunan freskalar çəkilib. XV əsrdə dünya şöhrətli italyalı heykəltəraş Mikelancelo kapellanın tavanının və mehrab divarının rəsmlərini yaradıb. Bura həm də muzey kimi fəaliyyət göstərir.

Vatikandakı Müqəddəs Pyotr Kilsəsi italyan intibah memarlığının ən məşhur nümunələrindən və dünyanın ən böyük kilsələrindən biridir. Kilsədə ilk Roma Papası hesab edilən Müqəddəs Pyotr dəfn edilib. Bura həm də məşhur ziyarətgah və dini mərasimlər yeridir. Buna görə də erkən xristianlıq dövründən etibarən əksər Roma papaları burada dəfn olunub.

Diqqətə çatdırıldı ki, Müqəddəs Pyotr Bazilikası həm də məşhur ziyarətgah və mərasim yeridir. Roma Papası il ərzində bazilika və ya onun qarşısındakı Müqəddəs Pyotr meydanında bir neçə dini mərasim keçirir.

# "İtaliya səfəri Prezidentin xarici siyasət sahəsində növbəti uğurudur"



"2020-ci ilin ilk ayları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət sahəsində zəngin fəaliyyəti ilə tarixə düşdü. Yanvar ayında Davosda Beynəlxalq İqtisadi Forumda iştirak edən, fevral ayında isə Münxen Təhlükəsizlik Konfransına qatılan Prezident İlham Əliyev, eyni zamanda çoxsaylı görüş və hadisələrlə müşayiət olunan İtaliya səfərini həyata keçirdi. Sadalananlar dövlətimizin xarici siyasət fəaliyyətinin intensivliyi ilə yanaşı, həmçinin Azərbaycanın beynəlxalq aləmdə rolu və əhəmiyyətinin durmadan artmasını sübuta yetirir". SİA-nın verdiyi məlumata görə, bu fikirlər Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun öz facebook səhifəsində paylaşım etdiyi "Prezident İlham Əliyevin tarixi İtaliya səfəri" sərlövhəli yazısında yer alıb.

Əli Əhmədov qeyd edib ki, Prezident İlham Əliyevin yenicə başa çatan İtaliya səfərini sözün həqiqi mənasında tarixi səfər adlandırmaq mümkündür: "Dövlətimizin başçısına və onun rəhbərlik etdiyi nümayəndə heyətinə göstərilən yüksək qarşılanma və qonaqpərvərlik bunun ən bariz ifadələrindən biri hesab edilməlidir. Etiraf edim ki, İtaliya kimi qədim və zəngin dövlətçilik ənənəsinə malik olan böyük Avropa dövlətində bu cür qarşılanmalara az təsadüf olunur. Səfərin tarixi əhəmiyyətinə dəlalət edən səbəblərdən biri kimi səfər çərçivəsində iki dövlət arasında 28 sazişin imzalanması qeyd oluna bilər. Bu fakt dövlətlərarası münasibətlərin həm mövcud vəziyyəti, həm də gələcək perspektivləri ilə əlaqədar tərəflərin məqsəd və mövqelərini nümayiş etdirir.

İlham Əliyevin səfər çərçivəsində keçirdiyi çoxsaylı görüşlərdə dünya sivilizasiyasına əvəzsiz töhvələr vermiş İtaliya kimi dövlətin rəhbərlərinin Azərbaycanın, onun inkişafının, ələlxüsus ölkəmizin sivilizasiyaların dialoqunun inkişafı sahəsində xidmətlərinin yüksək qiymətləndirilməsi hər bir azərbaycanlının qəlbini haqlı olaraq qürur hissi ilə doldurur. Bu baxımdan Roma Papasının, bütünlükdə Vatikan dövlətinin Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun inkişafı sahəsində fəaliyyətini ayrıca qeyd etməsi xüsusi əhəmiyyət kəsb edir".

"Prezident İlham Əliyevin Avropanın ən böyük aparıcı dövlətlərindən olan İtaliyaya tarixi səfəri ölkəmizin beynəlxalq aləmdə artan rolunun və əhəmiyyətinin birbaşa ifadəsi olmaqla yanaşı, həm də onun gələcək inkişaf perspektivləri haqqında aydın təsəvvürlər yaradır. Heç şübhəsiz, tarixi İtaliya səfəri Prezident İlham Əliyevin xarici siyasət sahəsində növbəti uğuru kimi tarixə düşəcək, ölkəmizin gələcək inkişafına əlavə töhvələr verəcək. Ayrıca olaraq onu da qeyd etmək lazımdır ki, dövlət başçımızın hər bir uğurlu xarici səfəri, o cümlədən İtaliya səfəri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə beynəlxalq dəstəyin əhəmiyyətli şəkildə güclənməsi ilə müşayiət olunur". Əli Əhmədov bildirib.

# Mübariz Qurbanlı: "Azərbaycan dünyada nümunəvi bir ölkə kimi tanınır"



***Azərbaycanda bütün sahələrdə olduğu kimi, din sahəsində də sabitlik mövcuddur. Bunu açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.***

M.Qurbanlı bildirib ki, Azərbaycan dünyada tolerantlığa, multikultural dəyərlərinə görə nümunəvi bir ölkə kimi tanınır: "Fevralın 22-də cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban xanım Əliyevanın Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşündə də Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, xalqımızın rifah içərisində yaşadığını qeyd edən Papa Fransisk ölkəmizdə dini icmalar arasındakı tolerant münasibətlərə toxunub. Azərbaycanda müxtəlif dini konfessiyalar, dini təriqətlər arasında heç bir qarşıdurma müşahidə olunmur. Baxmayaraq ki, bəzi ölkələrdə biz dini baxımından məzhəblər və təriqətlər arasında qarşıdurmalar, toqquşmalar müşahidə edirik, din adı altında gizlənən radikal, ekstremist qrupların həmin ölkələrdə öz məqsədlərinə çatmaq üçün dini istismar etdiklərini görürük, ancaq Azərbaycanda bu baxımdan sabitlik hökm sürür.

Azərbaycanın təqdim etdiyi tolerantlıq və birgəyaşayış nümunəsi dünyada münaqişələrin və toqquşmaların aradan qaldırılmasına xidmət edən əsas meyarlardan biridir. Eyni zamanda Azərbaycanda mədəniyyətlərarası dialoq, multikulturalizm, həmçinin müsəlmanlar, xristianlar və yəhudilər arasında harmoniya möhkəmlənib, bütün dini konfessiyaların sərbəst fəaliyyəti üçün lazımi şərait yaradılıb. Ölkəmizə istər xristian və yəhudi, istərsə də müsəlman ölkələrindən gələn nümayəndələr Azərbaycandakı bu sabit vəziyyəti yüksək qiymətləndirirlər".

M.Qurbanlı bildirib ki, Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqinə də mühüm töhfə verir: "Bilirsiniz ki, ötən il Azərbaycanda dünya dini liderlərinin ikinci böyük sammiti keçirildi və həmin sammitdə dünyanın tanınmış dini liderləri iştirak edirdilər. Sammitdə bütün çıxışlarda Azərbaycandakı dini durum yüksək dəyərləndirildi. Bütün bunlar cənab Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin məntiqi nəticəsidir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycanın multikultural, tolerant dəyərləri dünya miqyasında tanıdılır. Bildiyiniz kimi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə layiq görülüb. Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb. Əlbəttə, bu, eyni zamanda beynəlxalq aləmdə Mehriban xanım Əliyevanın fəaliyyətinə verilən böyük dəyərdir".

## Təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq



Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, bu qurumun "Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planı"na əsasən tədris olunacaq dərslərdə şagirdlərə XX əsrin ən böyük faciəsi barədə ətraflı məlumat veriləcək, Vətənə məhəbbət hissləri təbliğ ediləcək. Eyni zamanda, təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunmuş xatirə gecələri, foto və rəsm sərgiləri, şahidlərlə görüşlərin keçirilməsi, sənədli və bədii filmlərin nümayişinin təşkil edilməsi nəzərdə tutulur.

# "Əsas məqsəd Xocalının beynəlxalq məhkəmələr müstəvisində soyqırımı kimi tanınmasına nail olmaqdır"



Xocalı faciəsinin beynəlxalq ictimaiyyətə təqdim olunması və onun soyqırımı aktı olaraq tanıdılması istiqamətində səylərimiz davam edir. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

"Əsas məqsəd Xocalının beynəlxalq məhkəmələr müstəvisində soyqırımı kimi tanınmasına nail olmaqdır. Azərbaycan xalqı Xocalı qurbanlarının xatirəsini daim böyük ehtiramla yad edir. Bu gün Xocalı faciəsinin beynəlxalq ictimaiyyətə soyqırımı aktı olaraq tanıdılması istiqamətində səylərimiz davam edir. Çox müsbət haldır ki, 10-dan çox ölkənin parlamenti səviyyəsində və bir çox ölkənin yerli qanunverici orqanları səviyyəsində Xocalı insanlıq əleyhinə cinayət və soyqırımı aktı kimi qəbul edilib. Əsas məqsədimiz beynəlxalq məhkəmələr müstəvisində Xocalının soyqırımı kimi tanıdılmasına nail olunmasıdır. Bu prosesdə də ictimai məlumatlandırma, "Xocalıya ədalət!" kampaniyası, vətəndaş cəmiyyəti təşkilatlarımızın fəaliyyəti, diplomatik nümayəndəliklərimizin və diaspora təşkilatlarımızın fəaliyyəti çox önəmli xarakter daşıyır", - Hikmət Hacıyev vurğulayıb.

# Prezident vəzifəli şəxsləri İranla sərhədə göndərib



Prezident İlham Əliyevin tapşırığı ilə Dövlət Sərhəd Xidmətinin, Dövlət Gömrük Komitəsinin, Daxili İşlər, Fövqəladə Hallar, Səhiyyə Nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Qida Təhlükəsizliyi Agentliyinin rəhbər vəzifəli şəxsləri və mütəxəssislər İran İslam Respublikası ilə dövlət sərhədində yerləşən "Astara" və "Biləsuvar" buraxılış məntəqələrinə səfər ediblər. Bu barədə SİA-ya Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib. Səfər çərçivəsində son vaxtlar İran İslam Respublikasında müşahidə olunan koronavirus epidemiyasına qarşı dövlət sərhədindən buraxılış məntəqələrində həyata keçirilən qabaqlayıcı tədbirlərin gücləndirilməsi, bu xəstəliyə yoluxmalarına şübhə yaranan şəxslərin vaxtında aşkarlanması və tibbi təxliyəsi üzrə hazırlığın vəziyyəti nəzərdən keçirilib.



Gücləndirilmiş iş rejimində fəaliyyət göstərən dövlət sərhədindən buraxılış məntəqələrində ölkə ərazisinə daxil olan şəxslərin bədən hərarətinin xüsusi avadanlıqlar vasitəsilə yoxlanılması, əlavə tibbi personalın və təcili tibbi yardım avtomobillərinin birbaşa postların ərazisinə cəlb olunması və 24 saat növbəli rejimdə fasiləsiz olaraq fəaliyyət göstərmələrinin monitorinqi keçirilib. Müzakirələr zamanı bu günədək xəstəliyə yoluxma ilə bağlı şübhələrin olmaması nəzərə alınmaqla gələcəkdə ehtimal olunan riskli hallarda birgə fəaliyyətin koordinasiya edilməsi məsələləri üzrə fikir mübadiləsi aparılıb, dövlət sərhədindən keçən şəxslərin bu epidemiya barədə maarifləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

# DSX: Təmas xəttində Ermənistan ordusunun diversiya cəhdinin qarşısı alınıb

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədindəki təmas xəttində növbəti dəfə atəşkəs rejimini kobud şəkildə pozmaqla təxribat törədib. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, fevralın 24-də saat 07:00 radələrində Ermənistan silahlı qüvvələrinin Noyemberyan rayonunun Koti kəndi yaxınlığında yerləşən bölmələrindən Azərbaycan Respublikasının Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətindəki sərhəd döyüş məntəqəsinə diversiya cəhdinin qarşısı alınıb. Ciddi itkilər verməyə məcbur olmuş düşmənin bir zabiti ağır yaralanıb, digər hərbi qulluqçusu öldürülüb. Düşmənin diversiya qrupunun qumbaraatan və digər iriçaplı silahların tətbiqi ilə baş verən təxribatının qarşısı alınarkən sərhədçi əsgər Vəliyev İbrahim Ələmşah oğlu qəhrəmancasına şəhid olub.

# Hikmət Hacıyev: "Azərbaycan Prezidentinin İtaliyaya dövlət səfərini mahiyyət və məzmun etibarilə tarixi səfər adlandıra bilərik"

***Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dövlətimizin başçısı İlham Əliyevin İtaliya Respublikasına dövlət səfərinin yekunları ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.***

*-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına dövlət səfərini ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından necə xarakterizə edərdiniz?*

-İtaliya Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 1-də tanıyıb və ölkələrimiz arasında həmin il mayın 2-də diplomatik münasibətlər qurulub. Həmin vaxtdan etibarən əlaqələrimiz davamlı olaraq yüksələn xətlə inkişaf edir. Cənab Prezidentin İtaliyaya ilk dövlət səfərinin status, imzalanmış sənədlərin kəmiyyəti və keyfiyyəti, ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması və iqtisadi-ticari, hərbi-texniki, mədəni əlaqələr baxımdan müstəsna əhəmiyyəti var. Bu, Azərbaycan dövləti başçısının İtaliyaya ilk dövlət səfəridir. Əvvəlki illərdə cənab Prezident üçün rəsmi, ikisi isə işgüzar olmaqla beş dəfə İtaliyada səfərdə olub. İtaliya Respublikasının Prezidenti Sercio Mattarella da 2018-ci ilin iyulunda Azərbaycana ilk rəsmi səfərini edib. Dövlət səfəri status baxımından səviyyəsinə görə ən yüksək səfər hesab olunur və il ərzində bir ölkəyə məhdud sayda dövlət səfəri edilir. Dövlət səfəri zamanı müzakirə edilən məsələlərin əhatəsi daha geniş, mahiyyəti daha dərin olur. Eyni zamanda, bu səfər 2020-ci ildə İtaliyaya xarici dövlət başçıları tərəfindən edilən ilk dövlət səfəridir ki, bu da ölkəmizə və onun Prezidentinə göstərilən xüsusi hörmətdən irəli gəlir. Səfər zamanı Azərbaycanın dövlət başçısına və birinci xanımına misli görünməmiş ehtiram və xüsusi diqqət göstərildi. Bunu istər dövlət başçımızın səfərinin təşkilati-protokol aspektlərinin hər bir incəliyinə qədər düşünülmüş olması, istərsə də səfərin proqramının zəngin olmasında müşahidə etmək olar. Səfər çərçivəsində Prezident İlham Əliyevin italiyalı həmkarı Sercio Mattarella ilə təkbətək və geniş tərkibdə görüşü, habelə Nazirlər Şurasının Sədri (Baş Nazir) Cüzeppe Konte, İtaliya parlamenti Senatının və Deputatlar Palatasının sədrləri ilə görüşləri keçirilib.

Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri Azərbaycan və İtaliya arasında əlaqələrin yeni keyfiyyət müstəvisinə qədəm qoymasını təmin etdi. Belə ki, hazırda Azərbaycan və İtaliya arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın bir nömrəli siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. Yüksək səviyyədə olan siyasi əlaqələrimiz var. Təcrübə göstərir ki, ölkələr arasında siyasi əlaqələrin mükəmməlliyi digər vacib istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, mədəniyyət və digər sahələrdə də əməkdaşlığın inkişafı üçün hərtərəfli zəmin yaradıb.

İkitərəfli formatda strateji tərəfdaşlıq əlaqələri ilə yanaşı, ölkələrimiz çoxtərəfli müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirlər. Xüsusilə, İtaliya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığının güclənməsinə fəal dəstək verən çox vacib ölkədir. İtaliya dünyanın 7-ci iqtisadiyyatı olaraq "Böyük Yeddiliyin", Avropa İttifaqı və NATO kimi təşkilatların üzvüdür, beynəlxalq münasibətlərdə öz çəkisi və rolu olan ölkədir.



Görüşlərdə İtaliya tərəfindən Azərbaycanın çox vacib regionda yerləşməsi, çətin bir regionda yerləşməsinə baxmayaraq, çox uğurlu siyasət aparması və qonşu ölkələrlə sıx münasibətlər qurması, habelə ölkəmizin dünyəvilik ənənələri vacib amillər kimi qeyd olundu.

Səfər çərçivəsində digər tədbirlər sırasında İtaliya Prezidentinin Sarayında Prezident İlham Əliyevin şərəfinə verilmiş dövlət ziyafətini, dövlət başçıları və nümayəndə heyətləri üçün "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramını, İtaliyanın dünya səviyyəsində məşhur olan 10-dan çox ən iri, aparıcı sənaye və maliyyə qruplarının rəhbərləri ilə birgə işçi naharı, Azərbaycan-İtaliya biznes forumunu, Roma şəhər Meriyasına ziyarəti qeyd etmək olar. Ona görə də bu səfəri mahiyyət və məzmun etibarilə tarixi səfər adlandıra bilərik.

*-Səfər çoxlu sayda ikitərəfli sənədlərin imzalanması ilə səciyyələndi. Bu sənədlərin mahiyyəti nədir və onların ölkələrimiz arasında strateji əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyətini necə qiymətləndirmək olar?*

-Səfər çərçivəsində iki dövlət arasında ümumilikdə 28 sənəd imzalandı. Bu sənədlər siyasi, müdafiə, iqtisadi-ticari, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəniyyət, elm, turizm, idman, qida təhlükəsizliyi, paytaxtlar səviyyəsində əməkdaşlıq sahələrini əhatə edir. Onlardan 17-si Prezident İlham Əliyev və Baş Nazir Cüzeppe Kontenin iştirakı ilə imzalandı və mübadilə olundu. Digər sənədlər biznes forum çərçivəsində imzalandı.

İmzalanmış sənədlər sırasında "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" müstəsna əhəmiyyət daşıyır. Sənədin bilavasitə Prezident İlham Əliyev və Baş Nazir Cüzeppe Konte tərəfindən imzalanması bu sənədin siyasi yükünü göstərir.

Bu, Azərbaycanın digər ölkələrlə, o cümlədən "Böyük Yeddiliyin" və Avropa İttifaqının üzvü olan ölkə ilə imzaladığı ilk sənəddir. Bu sənədlə ölkələrimiz arasında münasibətlər yeni, daha yüksək səviyyəyə qədəm qoyur. Belə ki, tərəflər bir-birini strateji tərəfdaş kimi qəbul etməklə yanaşı, bu strateji tərəfdaşlığın bütün istiqamətlərdə daha da gücləndirilməsi istəyini ortaya qoyurlar.

Birgə Bəyannamədə Azərbaycan üçün olduqca vacib məqamlar yer alır. Sənədin preambula hissəsində ikitərəfli münasibətlərin əsaslandığı prinsiplər sadalanır ki, bunlar arasında tərəflərin bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək verməsi xüsusilə qeyd olunmalıdır. Tərəflər beynəlxalq münasibətlərdə təcavüz aktının qəbuledilməzliyini vurğulayırlar. Birgə Bəyannamədə ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tərəflərin birmənalı mövqeyi də əks olunur. Sənədin siyasi hissəsində münaqişənin Helsinki Yekun Aktının təməl prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı, BMT və ATƏT-in müvafiq sənəd və qərarları əsasında nizamlanmasına dair olduqca əhəmiyyətli maddə yer alır.

İtaliya hər zaman münaqişənin həlli prosesində Azərbaycanın haqlı mövqeyini dəstəkləyib və onun səyləri hər zaman Azərbaycan tərəfindən yüksək qiymətləndirilib. İtaliya ATƏT-in Minsk qrupunun üzvlərindən biridir və Minsk prosesi çərçivəsində çox fəal olub. Vaxtilə ATƏM-in Minsk Konfransının və sonradan ATƏT-in Minsk qrupunun ilk sədri də məhz italiyalı diplomat Mario Rafaelli olub. Məhz 1993-cü ildə italyan diplomat Mario Rafaellinin Ağdam şəhərinin işğalından sonra BMT Baş katibinə hazırladığı hesabat əsasında BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsi qəbul olunub.

Sənəddə, həmçinin Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri, Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP layihəsi və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində onların rolu və ölkəmiz üçün digər vacib məqamlar da yer alır. Cənab Prezidentin vurğuladığı kimi, Birgə Bəyannamədə əks olunan istər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, istərsə də digər məsələləri əhatə edən müddəalar Avropa İttifaqı ilə Azərbaycan arasında yeni tərəfdaşlıq sazişi üçün möhkəm əsas təşkil edə bilər. Nəticə etibarilə, Azərbaycan və İtaliya siyasi, iqtisadi, ticarət, enerji, mədəni-humanitar və digər sahələrdə strateji tərəfdaşlığı hərtərəfli şəkildə inkişaf etdirmək barədə iradələrini ifadə edirlər və bu prosesin irəli aparılması üçün iki ölkə arasında davamlı xarakter daşıyan strateji dialoq mexanizmi yaradılır.

*-İqtisadi-ticari və digər sahələrdə əməkdaşlıq Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın genişlənməsinə nə kimi töhfə verir?*

-Azərbaycanın İtaliya ilə strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsi siyasi sahə ilə yanaşı, digər sahələrdə də intensiv və məzmunlu əməkdaşlıq əlaqələri ilə səciyyələnir. İlk növbədə, ölkələrimiz arasında iqtisadi-ticari sahədə işbirliyi xüsusi əhəmiyyətə malikdir. İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. Təkcə 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 6 milyard ABŞ dolları təşkil edib. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi Azərbaycanın payına düşür.

Enerji sahəsində əməkdaşlığın olduqca yüksək səviyyəsi xüsusilə qeyd olunmalıdır. Uzun illər Azərbaycan İtaliya istehlakçılarını xam neftlə təchiz edir. Keçən il Azərbaycan İtaliyanın ən böyük xam neft təchizatçısı olub. İtaliyada istehlak olunan neftin 17 faizi ölkəmizin payına düşür. Bu il Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsi üzrə işlərin tamamlanmasından sonra bu rəqəm daha da artacaq. Bu layihənin reallaşdırılması Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verməklə yanaşı, ölkələrimizin mənafeyi və xalqlarımızın rifahına mütləq şəkildə xidmət edəcək.

İtaliya dünyanın 7-ci iqtisadiyyatıdır və "Böyük Yeddilik" ölkəsidir. Qabaqcıl texnoloji yeniliklərə və nou-haulara malik italyan şirkətləri Azərbaycanın neft-qaz və qeyri-neft sektorunda ümumi dəyəri 10 milyard ABŞ dollarından çox olan 300-dən artıq müxtəlif layihələrdə iştirak edirlər. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə fəaliyyət göstərən 100-dən çox İtaliya şirkəti qeydiyyata alınıb.

Təsadüfi deyil ki, dövlət səfəri çərçivəsində Prezident İlham Əliyevin dünyanın ən aparıcı italyan şirkətlərinin rəhbərləri ilə görüşü oldu. Habelə cənab Prezidentin iştirakı ilə hər iki tərəfdən sənaye, o cümlədən tekstil və qida sənayesi, energetika, kənd təsərrüfatı, logistika, İKT, səhiyyə, turizm, konsaltinq, tikinti sahələrini təmsil edən 100-ə yaxın şirkətin qatıldığı Azərbaycan-İtaliya biznes forumu keçirildi. Əvvəlki biznes forum 2018-ci ilin iyul ayında İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda baş tutmuşdur. İki ölkənin iş adamları arasında dövlət başçılarının iştirakı ilə belə görüşlərin keçirilməsi ənənəvi hal almaqla yanaşı, ikitərəfli iqtisadi-ticari əlaqələrin inkişafına dövlət səviyyəsində verilən yüksək diqqətin göstəricisidir.

Azərbaycan və İtaliya hərbi-texniki sahədə də əməkdaşlıq barədə razılıq əldə ediblər. Bu sahədə əməkdaşlıq ölkələrimiz arasında qarşılıqlı etimadın yüksək səviyyəsinin və Azərbaycanın hərbi-texniki sahədə əməkdaşlığının coğrafiyasının genişliyinin təzahürüdür.

Digər ikitərəfli əməkdaşlıq sahələrindən bəhs edərkən mədəni-humanitar sahədə son illər həyata keçirilən uğurlu təşəbbüsləri xüsusilə qeyd etmək lazımdır. Bu xüsusda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun rolu qeyd olunmalıdır. Heydər Əliyev Fondu tərəfindən İtaliyada müxtəlif layihələr reallaşdırılır. Roma şəhərində mədəniyyət abidələrinin bərpası işlərinə Azərbaycan tərəfindən fəal dəstək göstərilir. Mütəmadi əsasda İtaliyada keçirilən Azərbaycan kino və mətbəx festivalları ölkəmizin mədəniyyətinin təbliğinə xidmət edir. İtaliya dövlətinin başçısı tərəfindən 2020-ci ilin İtaliyada Azərbaycan Mədəniyyət İli elan olunması ölkəmizin mədəniyyətinin İtaliyada və Avropada daha geniş kütlələrə çatdırılmasına, xalqlararası təmasların daha da güclənməsinə və Azərbaycan-İtaliya əlaqələrinin daha da genişlənməsinə töhfə verəcək.

Bildiyiniz kimi, 2012-ci ildə Romanın görkəmli "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılışı olub. İtaliyaya səfəri zamanı cənab Prezident və birinci xanım bu abidəni ziyarət etdilər və önünə gül dəstələri qoydular.

Növbəti mühüm layihə kimi, Romanın mərkəzi hissəsində Azərbaycan Mədəniyyət Mərkəzinin açılması nəzərdə tutulur. Belə mərkəzlər hazırda Paris, Berlin və Vyanada fəaliyyət göstərir. Səfər zamanı cənab Prezident və birinci xanım Romada Azərbaycan Mədəniyyət Mərkəzi üçün nəzərdə tutulan bina ilə tanış oldular.

Humanitar sahəyə gəldikdə, son illərdə iki ölkənin elmi-akademik dairələri, ali təhsil müəssisələri arasında əməkdaşlıq daha intensiv xarakter alıb. Hazırda Azərbaycan Dillər Universitetində italyan dilinin tərcüməsi ixtisası tədris olunur və italyan dili mərkəzi fəaliyyət göstərir. İtaliyanın iki aparıcı universitetində - Roma Sapienza Universiteti və Venesiya Ka Foskari Universitetində azərbaycanşünaslıq fəaliyyəti çərçivəsində tədqiqatlar, tədris kursları həyata keçirilir. Son illərdə İtaliyanın ali təhsil müəssisələrində azərbaycanlı tələbələrin sayı artaraq 1500 nəfərə çatıb.

Azərbaycan Respublikası Prezidentinin İtaliyaya ilk dövlət səfəri, habelə səfər çərçivəsində imzalanmış Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə və digər istiqamətlər üzrə ikitərəfli sənədlər ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin yeni sahələr üzrə səmərəli şəkildə inkişafını təmin edəcək.

# Sağlam qida, sağlam həyat, sağlam millət, sağlam cəmiyyət, sağlam gələcək

*Hər bir millətin fiziki, mənəvi və əqli sağlamlığı onun qəbul etdiyi qidalar və milli mətbəxi ilə çox bağlıdır*

***X**alqımızın tarixən min illər boyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını qoruyaraq bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək vətəndaşlıq borcu olaraq hər birimizin əsas vəzifələrimizdən biridir.*



Xüsusilə də gənclərin, ədalət və düzgünlük, humanizm, mərhəmət, xeyriyyəçilik, cəsarət və şücaət, mərdlik, təmizlik, halallıq, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsi mənəvi cəhətdən sağlam və intellekt baxımından yüksək səviyyəli azad cəmiyyətin formalaşmasına xidmət edir.



Zaman keçdikcə milli-mənəvi dəyərlərə münasibətdə də müxtəlif dəyişikliklər, yeni yanaşmalar ortaya çıxır. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirməli, vətəndaşlarımızı xüsusilə də gənclərimizi daha da vətənpərvər, sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik.

Resurs Analitik İnformasiya Mərkəzi yuxarıda qeyd olunanları və ərzaq təhlükəsizliyinin bütün dünya ölkələrinin milli-iqtisadi təhlükəsizlik sisteminin ən mühüm tərkib hissəsi kimi dəyərləndirildiyini, hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün insan ləyaqətinin başlıca amili, milli təhlükəsizlik konsepsiyasının çox vacib elemenlərindən biri olduğunu və bu məsələlərin həmişə aktuallığını nəzərə alaraq Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə "Sağlam qida, sağlam həyat, sağlam millət, sağlam cəmiyyət, sağlam gələcək" şüarı adı altında "Milli mətbəximizin zənginliyi tariximizdir" adlı növbəti geniş tədbir keçirdi. Tədbir azərbaycanımızın cənub bölgəsində yerləşən, özünə məxsus mətbəx zənginliyi, mədəniyyəti ilə seçilən, əsrarəngiz təbiət gözəlliyi ilə göz oxşayan, Lənkəran şəhərində "Xəzər Palac" İstirahət mərkəzində keçirildi.

Qeyd edək ki, ötən tədbir respublikamızın qədim şəhərlərindən biri olan Şəki şəhərində yerləşən "Marxal" İstirahət Kompleksində keçirilmişdi. Burada respublikamızın eləcə də Şəkinin bir sıra tanınmış ziyalıları mədəniyyət və incəsənət təşkilatlarının nümayəndələri sənətkarlar iştirak etmişdi. Bu barədə daha ətraflı məlumatı Resurs Analitik İnformasiya Mərkəzinin facebook səhifəsindən eləcə də TV və digər KİV-də nümayiş olunmuş və dərc olunmuş məlumatlardan əldə edə bilərsiniz.




Fevralın 22-də əvvəlcə tədbir iştirakçıları Lənkəran şəhərində fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, Lənkəran Xan evi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı General-Mayor Həzi Aslanovun ev muzeyi ilə yaxından tanış oldular.

Tədbirdə çıxış edən "Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyinin sədri, siyasi ekspert Rasim Quliyev bildirib ki, sağlam qida, sağlam həyat, sağlam millət, sağlam cəmiyyət, sağlam gələcək milli təhlükəsizlik konsepsiyasının əsas prioritetlərindən biridir: "Hər bir millətin fiziki sağlamlığı, mənəvi və əqli sağlamlığı onun qəbul etdiyi qidalar və milli mətbəxi ilə çox bağlıdır. Milli təhlükəsizlik konsepsiyasının çox vacib elemenlərindən biri də təsadüfi deyil ki, qida təhlükəsizliyidir. Qida milli təhlükəsizlik konsepsiyasının əsas prioritetlərindən biridir.

Bu gün bu mövzunun aktuallığını və əhəmiyyətini nəzərə alaraq "Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi bununla əlaqədar olaraq növbəti dəfə Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə Azərbaycanın qədim şəhərlərindən bir olan Lənkəran şəhərində bu tədbiri keçirir. Xalqımızım min illər boyu formalaşdırdığı, qoruyub saxladığı milli-mənəvi dəyərləri bu gün də dünya mədəniyyətinə töhfələr verir. Bizim də bu dəyərlərimizi qoruyub saxlamaq inkişaf etdirmək, gələcək nəsillərin fiziki və mənəvi sağlamlığı naminə təbliğ etmək borcumuzdur.

Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu prosesinin getdiyi bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə vətənpərvərlik kimi hislərin aşılanması xüsusilə aktuallıq kəsb edir".

Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölməsinin müdiri Qağayı Məmmədov çıxış edərək Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği ilə bağlı ətraflı məlumat verərək görülən işlərdən danışıblar. "Xocalı Soyqrımı Tanıtma" İctimai Birliyinin sədri, Qarabağ müharıbəsi veteranı, jurnalist Şamil Ələkbərli, Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin rəhbəri Reyhanə Sadıxova, Lənkəran şəhər Mədəniyyət Mərkəzinin rəhbəri Hafiz Mirzə, Lənkəran şəhər Tarix Diyarşünaslıq Muzeyinin rəhbəri Ülviyyə Əliyeva, Gənclərin Respublika bədii yaradıcılıq evinin rəhbəri Səbinə Mirzəbəyeva, "Müasir Azərbaycan Qadını" İctimai Birliyinin sədri Kəmalə xanım Muradlı, "Elin Səsi" Milli Dəyərlərimizə Dəstək" Təşkilatının sədri Elvin Talışınski, İstiqlal.az saytının rəhbəri Qadir İbrahimli, Vətənin.info saytının rəhbəri Nahid Canbaxışlı, Rusiyanın Rostov-Don vilayətində "Xocalı tanıtım" İctimai Birliyinin nümayəndəsi Leyla Əhmədova, Azərbaycan Milli Kulinariya Mərkəzinin direktorunun müavini Ceyran Əsgərova, Resurs Analitik İnformasiya Nərkəzinə xalqımız üçün olduqca vacib, mühüm bir layihə həyata keçirdiyinə görə dərin təşəkkürlərini bildirdilər və milli-mənəvi dəyərlərimiz barədə ətraflı çıxış etdilər.

Tədbirdə QHT təşkilatlarının və Kütləvi İnformasiya Vasitələrinin nümayəndələri, fəal gənclər və Lənkəran şəhərində fəaliyyət göstərən bir sıra idarə müəssisələrin rəhbərləri, respublikamızın eləcə də Lənkəranın bir sıra tanınmış ziyalıları mədəniyyət və incəsənət təşkilatlarının nümayəndələri sənətkarlar iştirak ediblər.

***Azər Ələşrəfov***
***Resurs Analitik İnformasiya Mərkəzi Mətbuat xidmətinin rəhbəri***

## Vüqar Rəhimzadə:
## "Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib"

***"A**zərbaycan istər regional, istərsə də beynəlxalq miqyasda xarici dövlətlərlə qarşılıqlı əməkdaşlıq imkanlarının möhkəmləndirilməsi və daha da genişləndirilməsi istiqamətində mühüm addımlar atır. Möhtərəm Prezidentimiz İlham Əliyevin İtaliyaya gerçəkləşən dövlət səfəri bu baxımdan böyük önəm kəsb edir. Dövlət səfəri zamanı müzakirə olunan məsələlər, ölkələrimiz arasında siyasi, müdafiə, iqtisadi-ticarət, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəni, elmi, turizm, idman sahələrini əhatə edən 28 sənədin imzalanması səfərin nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir". Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycan Prezidentinin İtaliyaya dövlət səfərini şərh edərkən deyib.*



Vüqar Rəhimzadə bildirib ki, Azərbaycan bir çox Avropa ölkələri, eyni zamanda, İtaliya ilə sıx əlaqələrə malikdir: "Ölkəmiz Avropa İttifaqına daxil olan dövlətlərlə ayrı-ayrılıqda qarşılıqlı maraqlara söykənən möhkəm münasibətlər yarada bilib. İtaliya isə bu sırada xüsusi olaraq fərqlənir. Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlıq səviyyəsindədir. Ölkələrimiz ikitərəfli münasibətlər, həmçinin beynəlxalq təşkilatlar çəçivəsində istər siyasi, istərsə də iqtisadi sahələrdə hər zaman bir-birilərinə dəstək verirlər. Eyni zamanda, İtaliya daim Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin daha da yaxşılaşması işində fəal rol oynayır".

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, dövlət səfəri zamanı ölkələrimiz arasında imzalanan sənədlər yeni perspektiv inkişaf istiqamətlərindən xəbər verir: "Səfər zamanı Azərbaycan Prezidenti və İtaliyanın Baş Naziri tərəfindən "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyanamə" imzalanıb. Bu sənəd digərlərindən əhəmiyyətinə görə fərqlənir. Əsas məqam odur ki, Birgə Bəyanamə Azərbaycanın xarici ölkələrlə bu adda imzaladığı ilk sənəddir və "Böyük Yeddiliyin" üzvü olan ilk ölkə ilə imzalanıb. Sözsüz ki, bu amil bir daha sübut edir ki, Azərbaycan-İtaliya əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının təməl prinsipləri, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı çərçivəsində həlli, BMT və ATƏT-in müvafiq sənəd və qərarları öz əksini tapıb. Bununla yanaşı, Birgə Bəyannamədə Cənub Qaz Dəhlizinin tam şəkildə fəaliyyət göstərməsinə və Azərbaycan qazının Avropaya daşınmasına imkan yaradacaq TAP layihəsinin vaxtında tamamlanması üçün səylərin göstərilməsi bəyan edilib. Bu cür əhəmiyyətli sənədin imzalanması ölkələrimiz arasında münasibətlərin inkişafına, daha da dərinləşməsinə böyük dəstək verəcək".

Vüqar Rəhimzadə Azərbaycan-İtaliya iqtisadi əlaqələrinə də toxunub və gələcək üçün geniş imkanların mövcud olduğunu bildirib: "Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 6 milyard dollar olub. Bu rəqəm Azərbaycanın xarici ticarət dövriyyəsinin 18,04 faizinə bərabərdir. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi isə Azərbaycanın payına düşür. Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərən 100-dən çox İtaliya şirkəti qeydiyyatdan keçib. İtalyan şirkətləri Azərbaycanın neft-qaz və qeyri-neft sektorunda ümumi dəyəri 10 milyard dollardan yuxarı olan 300-dən artıq müxtəlif layihələrdə iştirak edirlər. Məncə, bu rəqəmlər iqtisadi münasibətlərimizin hansı səviyyədə olduğunu nümayiş etdirir".

"İki sahil" qəzetinin baş redaktoru mədəni əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi 2020-ci ilin İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan olunmasını da xüsusi olaraq vurğulayıb. Qeyd edib ki, bu kimi məqamlar həqiqətlərimizin təbliğində mütəsna rol oynayır

# AZƏRTAC-100: Bir əsrlik yola beş fərqli zaman nöqtəsindən baxış

## İlk xəbəri 1920-ci il martın 2-də işıq üzü görmüş Azərbaycan Dövlət İnformasiya Agentliyi haradan haraya gəlib

***Son yüz il bəşər tarixinə çox təlatümlü dövr kimi daxil olub: Rusiyada bolşevik inqilabından sonra Sovet imperiyasının yaranması və süqutu, İkinci Dünya müharibəsi, soyuq savaş illəri... Bu hadisələr dünyanın siyasi xəritəsinin bir neçə dəfə dəyişməsi, görünməmiş fəlakətlər və iztirablarla, nəhayət 29 il əvvəl 14 respublikanın dövlət müstəqilliyini bərpa etməsi ilə nəticələndi.***

Yetmiş il sürən imperiya əsarətindən sonra başımız üzərində azadlıq günəşi doğdu. Çətin sınaqlardan keçən, vaxtilə Hamlet-sayağı "olum, ya ölüm" sualı qarşısında qalan, hələ də Ermənistanla müharibə vəziyyətində olan Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasına çıxa bildi. Qalibiyyət və sarsıntıların, tənəzzül və tərəqqinin bir-birini əvəzlədiyi bir əsrlik yolun salnaməsini məhz Xalq Cümhuriyyətinin yadigarı olan AZƏRTAC yazdı. İnternetin olmadığı uzaq və yaxın keçmişdə baş verənlər barədə onun yaydığı xəbərlər saralmış qəzet səhifələrində, müasir Azərbaycanın keçdiyi inkişaf yolu və qazandığı uğurlar isə agentliyin saytında arxivləşib.

Yüz il əvvəl məhdud bir çərçivədə fəaliyyətə başlayan AZƏRTAC haradan haraya gəlib. Hesab edirəm ki, zamanın beş fərqli nöqtəsindən baxış bir əsrlik inkişaf yolu barədə tam və aydın təsəvvür yarada bilər.



1995-ci il 18 aprel. Brüsselə səfərdən qayıdarkən

### Yolun başlanğıcı və ilk milli xəbər agentliyinin cəmi 58 gün sürən müstəqilliyi

Müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları milli xəbər agentliyi yaradılmasının zəruriliyini yaxşı anlayırdılar. Hökumət bu məsələni 1919-cu il martın 3-də müzakirəyə çıxardı. Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin məruzəsi dinlənildi və Azərbaycan Teleqraf Agentliyinin (Acansının) təşkili Maarif naziri Nəsib bəy Usubbəyova tapşırıldı.

Hökumətin qərarı təxminən bir ilə yaxın kağız üzərində qaldı. Səbəblər dəqiq məlum olmasa da (həmin dövrdən günümüzə çox az sənəd gəlib çıxıb), ovaxtkı siyasi-iqtisadi şəraitdən çıxış edərək müəyyən mülahizələr yürütmək olar. Bir tərəfdən dövlətçilik ənənələrinin olmaması və maliyyə sıxıntıları, digər tərəfdən daxili və xarici təhdidlər nəzərdə tutulan planların icrasını çətinləşdirirdi. Geosiyasi vəziyyətə gəlincə, obrazlı desək, 1918-1920-ci illərin Azərbaycanı dalğaların döyəclədiyi tənha adanı xatırladırdı. Ona çoxlu göz dikilmişdi, ingilis generalı Tomson qoşunu ilə gəlib Bakıda oturmuşdu və Cümhuriyyət hakimiyyətini tanımaq istəmirdi. Belə bir mürəkkəb vaxtda xəbər agentliyi kimin gözünə görünərdi?

Cümhuriyyət rəhbərləri savadlı, ziyalı insanlar idi. Onlar sözün, xüsusən informasiyanın rolunu, necə böyük gücə malik olduğunu bilirdilər. Ona görə də teleqraf acanslığının yaradılmasında israrlı idilər və bu məsələyə yenidən qayıdıldı. 1920-ci il fevralın 2-də hökumət AZƏRTAC-ın əsasnaməsini müəyyən dəyişikliklərlə parlamentə çıxarmaq barədə növbəti qərar qəbul etdi.

Arxiv materiallarından belə məlum olur ki, o vaxt respublikada yeganə informasiya mənbəyi Bakı Sahil Radiostansiyası (simsiz teleqraf) idi. Onun da cəmi üç aparatı vardı: ikisi qəbuledici, biri həm qəbuledici, həm də ötürücü. Bu iki aparat sutkada 70 mindən çox söz qəbul edə bilmirdi. Azərbaycan haqqında xəbərlər isə yalnız bir aparatla ötürülürdü. Necə deyərlər, dəryada bir damla. Halbuki ermənilər teletayp alaraq Azərbaycanı ləkələyən, gözdən salan, iftira dolu yazıları Avropada - Fransa, Almaniya kimi ölkələrdə yayırdılar.

Teleqraf acanslığının yaradılması üçün həm maliyyə vəsaiti və texniki avadanlıq, həm də ixtisaslı kadrlar lazım idi. Təbii ki, yenicə ayaq üstə duran respublikanın mükəmməl agentlik təşkil etməsini düşünmək sadəlövhlük olardı. Agentliyin texniki bazası, yaradıcı heyəti barədə əldə yetərincə sənəd olmadığından, bununla bağlı mühakimə yürütmək çətindir. Lakin görünən odur ki, dövlət işlərinin başdan aşdığı çox mürəkkəb bir şəraitdə milli xəbər agentliyini təşkil etmək mümkün oldu və mühüm bir işin təməli qoyuldu.

Nəhayət, parlamentdəki müzakirələrdən bir həftə sonra - martın 1-də AZƏRTAC fəaliyyətə başladı və ertəsi gün onun ilk xəbəri işıq üzü gördü. Agentlik respublikada baş verən hadisələri, hökumətin gördüyü işləri əks etdirən gündəlik bülletenlər də hazırlayıb həm respublika daxilində, həm də xaricdə yayırdı.

Bu, Azərbaycanın səmasında qara buludların getdikcə sıxlaşdığı vaxtlar idi. Çox keçmədən Azərbaycan bolşevik işğalına məruz qaldı və Cümhuriyyət hökuməti süquta uğradı. Milli Teleqraf Acanslığı cəmi 58 gün fəaliyyət göstərsə də, adını tarixə yazdıra bildi. Artıq bünövrə qoyulmuşdu, ilk cığırlar açılmışdı...

### Yetmiş illik sovet rejiminin AZƏRTAC-ın taleyində qoyduğu ağ-qara izlər

Ötən əsrin 20-ci illərinədək dünyaya bir çox imperiyalar gəlib getmişdi. O vaxtlar işğalın üzərinə diplomatiya pərdəsi çəkməyə ehtiyac duyulmurdu. Azərbaycanın işğal olunduğu, SSRİ-nin tarix səhnəsinə çıxdığı zamanlarda isə dünya dəyişmişdi və imperiya ambisiyalarına bər-bəzəkli don geyindirmək lazım gəlirdi. Məkrli siyasət saxta bəyanatlarla pərdələnirdi.

1920-1922-ci illəri bəzi tarixçilər ikinci Respublika dövrü kimi səciyyələndirirlər. Bu, əsasən ondan irəli gəlir ki, Azərbaycan Respublikası SSRİ-nin tərkibinə qatılanadək Xalq Cümhuriyyətinin mütərəqqi kursunu qismən də olsa, davam etdirmişdi. O vaxt atılan addımlar sırasına rəsmi informasiya agentliyinin yaradılması da aid edilə bilər. Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun 1920-ci il 9 iyun tarixli dekreti ilə Mərkəzi Mətbuat Kollegiyası yaradıldı və Rusiya Teleqraf Agentliyinin Qafqaz diyar şöbəsinin Azərbaycan bölməsi (AZQAF-ROSTA) kollegiyaya daxil edildi. Təxminən bir il sonra AZQAFROSTA müstəqil quruma - Azərbaycan Teleqraf Agentliyinə çevrildi. Agentliyin ilk direktoru Qubad Qasımov jurnalist təcrübəsinin olmadığını etiraf edir və xatirələrində yazırdı ki, informasiyanı yaymaq üçün texniki imkanlar da son dərəcə məhdud idi. O vaxt Bakı küçələrindən birində yəqin ki, çoxlarımızın eşitmədiyi "İşıq" qəzeti peyda oldu. İnsanlar böyük ekranın qarşısına yığışaraq agentliyin xəbərlərini buradan oxuyurdular.

Keçmiş SSRİ dövründə hadisələrin gedişindən asılı olaraq Azərbaycanın milli informasiya agentliyi müxtəlif aqibətlə üzləşirdi. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, onun adını yeddi dəfə dəyişmişdilər. Hətta bir vaxt üç Cənubi Qafqaz respublikasının informasiya agentlikləri ZaqTA adı altında birləşdirilmişdi. Adlar dəyişsə də, mahiyyət dəyişmirdi. Sovetlər ittifaqına daxil olan bütün respublikaların informasiya agentlikləri kimi, Azərbaycan Teleqraf Agentliyi də Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) filialı statusunda fəaliyyət göstərirdi. Xəbərlər Bakıya Moskvadan morze əlifbası ilə ötürülürdü.

Yetmiş illik tariximizin ziddiyyətlərinə, AZƏRTAC-ın taleyində qoyduğu ağ-qara izlərə baxmayaraq, agentlik dövrün salnaməsini yazmaqda davam edirdi. O qədər də geniş olmayan müxbir şəbəkəsi respublikanın həyatını öz gücü və bacarığı daxilində işıqlandırırdı.

İkinci Dünya müharibəsi illəri üzərində ayrıca dayanmağa ehtiyac duyuram. Müharibə, təbii fəlakət, ekstremal hallar şəraitində işləmək xəbər agentliyinin və onun müxbirlərinin fəaliyyətində kulminasiya nöqtəsidir. Biz dünya təcrübəsində də, öz təcrübəmizdə də şahidik ki, hətta dövlət strukturları iflic vəziyyətinə düşdükləri vaxtlarda xəbər agentlikləri işləyir, hər bir vəchlə informasiya əldə

# AZƏRTAC-100: Bir əsrlik yola beş fərqli zaman nöqtəsindən baxış

## İlk xəbəri 1920-ci il martın 2-də işıq üzü görmüş Azərbaycan Dövlət İnformasiya Agentliyi haradan haraya gəlib

etməyə və müxtəlif yolla yaymağa çalışır.

1941-1945-ci illərə gəlincə, AZƏRTAC-ın hərbi müxbirləri qızğın döyüşlərin getdiyi ön cəbhədən reportajlar göndərirdilər. Agentlik informasiya işini iki istiqamətdə aparırdı: həm döyüş xəttindən, həm də insanların arxa cəbhədəki fədakar əməyindən bəhs edən materiallar hazırlayırdı. Bu yazılar yerli mətbuatda və cəbhə qəzetlərində yer alırdı.

### Azərbaycanın və AZƏRTAC-ın həyatında dönüş nöqtəsi

Respublikamız keçmiş SSRİ-nin tərkibində olduğu 70 ildə bir-birindən kəskin fərqlənən iki dövr yaşadı. 1970-ci illərədək durğunluğun, kosmopolit əhval-ruhiyyənin hakim kəsildiyi Azərbaycan Sovet İttifaqının geridə qalmış ucqarlarından biri sayılırdı.

1969-cu ilin iyun plenumu, respublikaya milli ruhlu, yüksək təşkilatçılıq bacarığına və yenilməz iradəyə malik rəhbərin - Heydər Əliyevin təyin edilməsi Azərbaycanın həyatında dönüş nöqtəsi oldu. Çox keçmədən həyatın ritmi dəyişdi, hər bir sahədə, o cümlədən mətbuatda görünməmiş inkişaf başladı.

O vaxtdan xalqın qəlbində yer tutan, sonradan dünya şöhrətli dövlət xadimləri sırasında yer alan Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər, eyni zamanda, milli ruhun və milli özünüdərkin dirçəliş dövrü kimi də səciyyəvidir. Bu dahi şəxsiyyət hələ yarım əsr bundan əvvəl mətbuatın, informasiyanın insanların vahid məqsədə yönəldilməsindəki səfərbəredici rolunu hamıdan yaxşı görürdü. Buna görə də mətbuata, jurnalistlərə fərqli münasibət bəsləyir, xüsusi həssaslıqla yanaşırdı. O, mətbuata açıqlığı ilə də seçilirdi. Birinci katib işlədiyi vaxtlarda "Literaturnaya qazeta"da "Qoy, ədalət zəfər çalsın" sərlövhəsi ilə dərc olunmuş məşhur müsahibəsi bütün ittifaqa səs salmışdı. İlk dəfə idi ki, heç kimin danışmağa cəsarət etmədiyi nöqsanlar birinci şəxs tərəfindən mətbuatda açıq şəkildə tənqid olunurdu.

Heydər Əliyevə qədər arxa planda qalan AZƏRTAC da istər respublika, istərsə də İttifaq miqyasında öncül mövqelərə çıxmağa başladı, SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəzə çevrildi. Rus dilində göndərilən həmin materialları ana dilimizə operativ surətdə çevirmək lazım gəlirdi. Ustad tərcüməçi, gözəl ziyalı Bağır Seyidzadənin rəhbərlik etdiyi tərcümə redaksiyası bu gərgin işin öhdəsindən məharətlə gəlir, müxtəlif sahələrə dair informasiyaları yerli oxuculara yüksək səviyyədə təqdim edirdi. Agentliyin əməkdaşları, həmçinin müxbir briqadalarının tərkibində xarici ölkələrə gedir, bilavasitə hadisə yerindən xəbərlər hazırlayıb göndərirdilər.

Çox keçmədən AZƏRTAC-ın texniki təchizatını yaxşılaşdırmaq istiqamətində mühüm addımlar atıldı. Heydər Əliyevin şəxsi nüfuzu hesabına müttəfiq respublikaların informasiya agentlikləri arasında Ukrinform-dan sonra məhz AZƏRTAC kompüterlə təchiz edildi. Agentlik həm maddi-texniki bazasına, həm də yaradıcılıq potensialına görə birincilər sırasına çıxmağa nail oldu.

Sovet dövründə imkanlar bütün cəhətdən məhdud idi. Rusiya istisna olmaqla, digər 14 respublika, necə deyərlər, Moskvanın əlinə baxırdı. Direktivlər Kremldən gəlirdi, büdcəni mərkəzi hökumət ayırırdı. Rəhbərin məharəti mövcud imkanlar daxilində mümkün olanı, bəlkə ondan da artığını etmək idi. Bunu yalnız Heydər Əliyev kimi fenomen siyasətçi, dövlət xadimi edə bilərdi və etdi. Məhz onun hakimiyyətdə olduğu 1969-1982-ci illərdə Azərbaycanla bərabər, AZƏRTAC da böyük inkişaf yolu keçdi. Uzaq keçmiş barədə bu qədər. İndi də keçək ən yeni tariximizə.

### AZƏRTAC ciddi sınaq qarşısında: Qanlı Yanvar, Qarabağ müharibəsi və xaos illəri

Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın qara günləri başladı. Bir tərəfdən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, bu iddialar fonunda Dağlıq Qarabağda baş qaldıran separatizm, digər tərəfdən mərkəzi hakimiyyətin ayrı-seçkilik siyasəti və qərəzli yanaşması vəziyyəti günbəgün kəskinləşdirirdi. Sürətlə cərəyan edən hadisələrin kulminasiya nöqtəsi 1990-cı ilin 20 yanvarı oldu. Sovet ordu hissələrinin Bakıya hücumu ərəfəsində Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Qanlı hadisələrin ertəsi günü qəzetlərin nəşri dayandırıldı. Radio və televiziya işləmir, qəzetlər çıxmır, xarici radiostansiyaların dalğaları vurulurdu. Respublika tam informasiya blokadasına alınmışdı. Nə etməli? AZƏRTAC-ın müxbirləri çıxış yolunu xəbər bülletenləri hazırlayıb Bakının müxtəlif yerlərində divarlara yapışdırmaqda görürdülər. Bu iş qaranlıq düşəndən sonra görülürdü. İmperiya əsgərləri səhər açılan kimi vərəqələri cırıb atsa da, əhali baş verənlərdən qismən də olsa, xəbər tuta bilirdi. 20 Yanvarın dəhşətli həqiqətlərini əks etdirən fotovitrin də eyni aqibəti yaşadı.

1990-cı illərin əvvəlində Ermənistanın Azərbaycana hərbi təcavüzü də pik nöqtəsinə çatmışdı. Bir milyondan çox azərbaycanlı doğma yurd-yuvasından qovulmuşdu, torpaqlarımızda elan olunmamış müharibə gedirdi. Özünümüdafiə qüvvələri təpədən-dırnağadək silahlanmış amansız düşmən qarşısında tab gətirə bilmir, şəhər və kəndlərimiz bir-birinin ardınca işğal olunurdu. Erməni faşistləri Xocalı şəhərində əsrin ən dəhşətli soyqırımlarından birini törətdilər.

Bu hadisələr fonunda yaranmış hakimiyyət boşluğu nəticəsində Azərbaycan dalana dirənmişdi. Rəsmi məlumatlar birtərəfli idi, respublika rəhbərliyi və dövlət strukturları baş verənləri xalqdan gizlədirdi. Əsas xəbər qaynağı olan AZƏRTAC daha bir çətin imtahan qarşısında qalmışdı. Agentliyin müxbirləri cəbhə bölgələrinə, məcburi köçkünlərin məskunlaşdığı çadır düşərgələrinə gedərək materiallar hazırlayır, yaranmış fəlakətli və dramatik vəziyyət barədə həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa çalışırdılar. Bu sıraya agentliyin "Azərbaycan" nəşriyyatı ilə birgə hazırladığı kitablar da daxildir. Erməni şovinistlərinin və separatçılarının məkrli niyyətlərindən qaynaqlanan hadisələrin mahiyyətini açıb göstərən bu nəşrlərdə ilk dəfə olaraq, sovet rəhbərliyinin anti-Azərbaycan siyasəti də ifşa edilirdi.

1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Azadlığın şirin və acı tamı - paradoks olsa da, xalqımız bir müddət bu iki duyğunu eyni vaxtda yaşamalı oldu. Dövlət müstəqilliyinin kağız üzərində qalması bir yana, kreslo düşkünü olan naşı rəhbərlər Azərbaycanı uçurum kənarına gətirib çıxardılar, xalqı vətəndaş müharibəsinin alovuna atdılar.

Daha bir paradoks. İqtidarda olanlar özlərini demokrat adlandırsalar da, azad sözün, azad fikrin qarşısına sədd çəkirdilər. Dövlətin inhisarında olan KİV-də, o cümlədən AZƏRTAC-da xalqımızın böyük oğlu Heydər Əliyevin adını çəkmək yasaqlanmışdı.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən təxminən bir il sonra - 1992-ci il dekabrın 18-də AZƏRTAC-ın tarixi adı bərpa olundu. Lakin informasiyanın cəmiyyətdə və dövlət həyatında oynadığı roldan bixəbər olan keçmiş iqtidarın etinasızlığı ucbatından agentlik çox ağır günlər yaşayırdı. Cüzi büdcə vəsaiti nəinki müasir texnika almağa, heç işçilərin maaşını ödəməyə yetmirdi. Maddi-mənəvi sıxıntılara baxmayaraq, AZƏRTAC yaşayır, onun fədakar əməkdaşları peşə borclarını vicdanla yerinə yetirirdilər. Bu çətin vəziyyət ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışınadək davam etdi.

### *Dövlət siyasətinin informasiya təminatı:* Heydər Əliyev AZƏRTAC-a etibar edirdi

Mənim həyatımın böyük hissəsi AZƏRTAC-la bağlıdır: 100 illik yolun təxminən 30 ili gözümün önündə keçib. Oxucu yazımın bundan sonrakı hissəsini bir qərinəlik inkişaf yolunun canlı şahidinin və iştirakçısının qeydləri kimi qəbul edə bilər. Xalqımızın ulu öndəri Heydər Əliyev dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a üstünlük verir, ona etibar edir, xüsusi qayğı ilə yanaşırdı. Odur ki, respublika rəhbərliyinə qayıdışından az sonra - 1995-ci il martın 3-də agentliyin yenidən təşkil edilməsi haqqında Fərman imzaladı. Sənədə əsasən, AZƏRTAC-a dövlət informasiya orqanı statusu verildi, yetərincə büdcə vəsaiti ayrıldı.

Bunun ardınca, 1996-cı il iyunun 29-da digər sənəd - AZƏRTAC-ın işinin yaxşılaşdırılması haqqında Prezident Sərəncamı imzalandı. Agentlik üçün müasir texnika alındı, xaricdə ilk müxbir məntəqələri açıldı. Nəhayət, AZƏRTAC-ın fəaliyyətinin təkmilləşdirilməsi haqqında 2000-ci il 17 yanvar tarixli Fərmana əsasən, agentliyin maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırılması, xarici ölkələrdəki müxbir məntəqələrinin zəruri texniki avadanlıqla təchiz olunması, əməkdaşların əməkhaqlarının 50 faiz artırılması qərara alındı.

Ümumiyyətlə, 1995-2002-ci illərdə Ulu Öndər agentliyimizlə bağlı 6 fərman və sərəncam imzalamışdı. Bu, Heydər Əliyevin dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a verdiyi önəmin, onun xüsusi əhəmiyyətini və rolunu nəzərə almasının bariz göstəricisidir. Bu diqqət və qayğı, eyni zamanda, Heydər Əliyevin agentliyə inam və etibarından qaynaqlanırdı. Biz də öz növbəmizdə onun etimadını doğrultmaq üçün gecə-gündüz bilmədən çalışırdıq. Mənə Ulu Öndərimizin 1993-cü il iyunun 11-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında xarici diplomatlarla keçirdiyi ilk görüşündən başlayaraq, dövlət və hökumət başçıları, yüksək səviyyəli nümayəndə heyətləri ilə, demək olar, bütün görüşlərini, xarici səfərlərini, apardığı danışıqları işıqlandırmaq xoşbəxtliyi nəsib olub. ABŞ, Böyük Britaniya, Fransa kimi nəhəng dövlətlərin liderlərinin, dünyaca məşhur siyasətçilərin, yazıçıların Heydər Əliyev haqqında necə heyranlıqla danışdıqlarının, onun Azərbaycan, ümumilikdə, türk dünyası qarşısında xidmətlərini necə yüksək qiymətləndirdiklərinin şəxsən şahidiyəm. Eşitdiyim, bloknotuma köçürdüyüm bu fikirlər sonradan AZƏRTAC-ın xətti ilə nəşr olunan "Dünyanı heyran qoyan insan" adlı kitaba çevrildi.

Bu da bir fenomendir: Ulu Öndər nə yazdığım, necə yazdığımla şəxsən maraqlanırdı. Məni tez-tez yanına çağıraraq istiqamət verir, tövsiyələrini çatdırırdı. O vaxtlar Azərbaycan mətbuatında dövlət başçısının fəaliyyətini işıqlandırmaq ənənəsi və təcrübəsi olmadığından bu, əsl jurnalistika dərsləri idi. Ondan əvvəl respublikaya rəhbərlik edənlərin keçirdikləri görüşlərdən, apardıqları danışıqlardan qayıdan müxbir informasiya hazırlamaqda olmazın çətinlik çəkirdi. Çünki iqtidarda olan şəxslərin heç bir dövlətçilik təcrübəsi yox idi. Adi protokol qaydalarından tutmuş, danışıqlaradək heç bir prosedur beynəlxalq standartlara uyğun gəlmirdi, diplomatiya çərçivələrinə sığmırdı. Bir neçə quru cümlədən ibarət xəbər təbii ki, oxucunu qane edə bilməzdi. İnformasiyanın kasadlığı rəhbərlə xalq arasında sanki qara pərdə çəkirdi. Belə bir şəraitdə hansı siyasi publisistikadan söhbət gedə bilərdi? Azərbaycan mətbuatında siyasi publisistika janrının əsasları 1993-cü ildən sonra - Heydər Əliyevin hakimiyyəti illərində qoyuldu. Hesab edirəm ki, bu, ayrıca bir söhbətin mövzusudur.

### Heydər Əliyevin jurnalistika dərsləri

Ulu Öndərimizin ən müxtəlif mövzulardakı çıxışları, nitqləri, dövlət və hökumət başçıları ilə apardığı yüksək səviyyəli danışıqlar fikrin ifadə tərzi, səlis və təmiz dili, aydın məntiqi baxımından siyasi publisistikanın bənzərsiz nümunələridir. O, qabaqcadan yazılmış hazır mətnlərdən istifadə etməzdi, auditoriyanın havasına köklənərdi. Biz hər biri bitkin publisistik əsər təsiri bağışlayan bu çıxışları şifahi nitqdən yazılı mətnə çevirərək mətbuata, radio və televiziyaya göndərərdik.

Ardı Səh. 10

# AZƏRTAC-100: Bir əsrlik yola beş fərqli zaman nöqtəsindən baxış

*İlk xəbəri 1920-ci il martın 2-də işıq üzü görmüş Azərbaycan Dövlət İnformasiya Agentliyi haradan haraya gəlib*

**Əvvəli Səh. 9**

Onları oxucuya yubanmadan çatdırmaq üçün çox vaxt səhərədək işləyərdik. Bu yerdə çoxlarının bilmədiyi maraqlı bir məqamı da vurğulamaq yerinə düşər. Ulu Öndər çıxışlarının mətbuat üçün hazırlanan mətnlərini şəxsən nəzərdən keçirir, redaktə xarakterli düzəlişlər edirdi. Yadımdadır, gecəyarısı zəng vurur, hansısa sözü, yaxud cümləni dəyişməyi tapşırırdı.

Həmin nitq və çıxışların AZƏRTAC tərəfindən yayılmış mətnləri görkəmli filosof-alim, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu, "Azərnəşr" tərəfindən nəfis tərtibatda çapdan buraxılan "Müstəqilliyimiz əbədidir" adlı çoxcildliyin 46 kitabına daxil edildi və biz, haqlı olaraq, bununla qürur duyuruq. Fəxr edirik ki, bu şanlı tarixi AZƏRTAC-ın kollektivi yazdı. Hesab edirəm ki, Heydər Əliyevin dərin məzmunlu nitq və çıxışları siyasi publisistikanın ən gözəl örnəyi kimi Jurnalistika fakültəsində tədris oluna bilər və mütləq olunmalıdır.

Həmin vaxtlar xarici səfərlərdə Prezidenti müşayiət edən həmkarlarım da təsdiqləyərlər ki, Heydər Əliyev bizə jurnalistika dərsi keçərdi: informasiyanı nədən başlamaq, əsas məqamı və faktı ikinci dərəcelidən necə seçmək lazım gəldiyini səbirlə izah edərdi. Biz jurnalistikanın, xüsusən siyasi publisistikanın müasir standartlarını, dövlət başçısının fəaliyyətini lazımi səviyyədə işıqlandırmağın incəliklərini Heydər Əliyev məktəbindən beləcə zərrə-zərrə öyrənirdik.

Bir qədər əvvəl qeyd etdiyim kimi, Ulu Öndər dövlət həyatı ilə bağlı bütün məsələləri işıqlandırmağı AZƏRTAC-a etibar etmişdi. O, dövlət başçısının gündəlik fəaliyyəti üzərindən keçmişin mirası olan "sirr" pərdəsini götürmüşdü. Deyirdi: hara getsəm, kiminlə görüşsəm, nə danışsam, hamısını yazın, olduğu kimi yazın ki, xalq hər mətləbdən agah olsun. Heydər Əliyev müstəqil Azərbaycanın rəhbərliyinə çox mürəkkəb vaxtda qayıtmışdı. Qarşıda respublikanı dərin siyasi-iqtisadi böhrandan çıxarmaq, düşmənin hərbi təcavüzünü dayandırmaq, Azərbaycanı dünyada tanıtmaq, milli maraqları qorumaq kimi çətin vəzifələr dayanırdı. Odur ki, xalq xilaskar gözündə gördüyü rəhbərin fəaliyyətini ən xırda detallarınadək bilmək istəyirdi. Bu haqlı marağı nəzərə alan Ulu Öndər xalqı tam məlumatlandırmaq missiyasını AZƏRTAC-a həvalə etdi.

Əsası həmin vaxtlarda qoyulmuş ənənə bu gün də davam etdirilir və Prezidentin mətbuat katibi, rəsmi informasiya işinin peşəkarı Azər Qasımovun səyləri sayəsində yeni çalarlarla zənginləşdirilir. Agentlik Prezident İlham Əliyevin çıxış və nitqlərini, görüşlərini, xarici ölkələrə və bölgələrə səfərlərini, apardığı danışıqları bütün təfərrüatı ilə işıqlandırır, miqyasından və həcmindən asılı olmayaraq, elə həmin gün oxucuya çatdırır. Bu, eyni zamanda, AZƏRTAC-ın birbaşa funksiyasıdır və onun statusundan irəli gəlir. Çünki o, həm də xalqın tarixi salnaməsini yazan bir media qurumudur. Yeri gəlmişkən, akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə "Azərnəşr" tərəfindən buraxılan "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin indiyədək işıq üzü görmüş 95 kitabı da AZƏRTAC-ın materialları əsasında hazırlanıb.

## AZƏRTAC qlobal informasiya məkanında

"AZƏRTAC-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır". Bu sitat Prezident Heydər Əliyevin 2000-ci ildə agentliyin 80 illik yubileyi münasibətilə kollektivimizə ünvanladığı təbrik məktubundan götürülüb. Həmin vaxtdan etibarən Ulu Öndərimizin proqram xarakterli tövsiyəsi fəaliyyətimizin prioritet istiqamətlərindən birini təşkil edib. Ötən 20 ildə kollektivimiz bu hədəfə doğru inadla və inamla irəliləyib, ürəkaçan nəticələrə nail olub. Mövzu çox geniş olduğundan bir neçə xarakterik məqamı qeyd etməklə kifayətlənəcəyəm.

İnformasiyanın dünya siyasətinə təsirinin artdığı, xəbər istehsalçılarının gündən-günə çoxaldığı, sosial şəbəkələrin həyatımıza daxil olduğu bir vaxtda beynəlxalq media məkanında yer tutmaq heç də asan deyil. Öz təcrübəmiz əsasında deyə bilərəm ki, bunun üçün davamlı iş aparmaq, ilk növbədə, etibarlı və dürüst xəbər qaynağı kimi tanınmaq, həmkarların inam və etimadını qazanmaq lazımdır.

AZƏRTAC son illərdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşlıq müqaviləsi imzalayıb, 150-dək agentliklə informasiya mübadiləsi aparır. Onların arasında bütün qitələrdən olan aparıcı agentliklər, o cümlədən TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), İRNA (İran), ANSA (İtaliya), KYODO (Yaponiya), Yonhap (Koreya Respublikası), TELAM (Argentina), SPA (Səudiyyə Ərəbistanı), Ukrinform (Ukrayna), BELTA (Belarus), Kazinform (Qazaxıstan) və digər nüfuzlu xəbər yayımçıları var. Biz, həmçinin Dünya Xəbər Agentlikləri Konqresi Şurası və Avropa Xəbər Agentlikləri Alyansı (EANA) çərçivəsində Associated Press, Reuters, Press Association, DPA agentlikləri ilə sıx əməkdaşlıq edirik.

2004-cü ildə Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA), 2008-ci ildə Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilən AZƏRTAC, eyni zamanda, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli Xəbər Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir.

Agentliyin həyatında ən əlamətdar hadisələrdən biri 2016-cı ildə baş verdi. Prezident İlham Əliyevin himayəsi, birinci xanım Mehriban Əliyevanın dəstəyi, Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakı eyni vaxtda iki mötəbər beynəlxalq təşkilatın əsas forumlarına - Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına yüksək səviyyədə ev sahibliyi etdi, agentliyimiz hər iki qurumun rəhbəri seçildi. Bununla da Azərbaycanın və AZƏRTAC-ın adı dünya mətbuat tarixinə həmişəlik yazıldı.

Beş qitəni, 80 ölkəni və dünyanın 100-dən çox aparıcı xəbər agentliyini təmsil edən 200 nümayəndənin iştirak etdiyi bu forumlar yaddaşlarda dərin iz qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin konqresin açılışında iştirakı, geniş nitq söyləməsi, daha sonra iştirakçıların bir qrupunu qəbul etməsi bu qlobal forumlara xüsusi ahəng verdi. Dövlətimizin başçısının açılış nitqində qeyd etdiyi kimi, Dünya Xəbər Agentlikləri Konqresinin Bakıda keçirilməsi müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisidir.

AZƏRTAC dünya xəbər məkanına getdikcə daha inamla çıxır, informasiya nəhəngləri ilə bir sırada addımlayır. Bu, təbii ki, dinamik inkişaf edən Azərbaycana artan maraqla, ölkəmizin dünyada söz və nüfuz sahibinə çevrilməsi ilə şərtlənir. Xarizmatik lider olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan durmadan müasirləşir və modernləşir. Ölkəmizdə aparılan islahatlar dünyanın diqqətini cəlb edir və yüksək dəyərləndirilir. Bu yeniləşmə ab-havası ölkə mediasına da sirayət edir. Dövlətimizin başçısının dəstəyi sayəsində AZƏRTAC ən müasir informasiya texnologiyaları ilə təchiz olunub. Agentliyin rəhbərliyi və nümayəndələri yüksəksəviyyəli media forumlarında mütəmadi iştirak etmək imkanı qazanıb. Eyni zamanda, dünyanın bir çox informasiya nəhəngləri müasir Azərbaycanın milli informasiya agentliyi ilə əməkdaşlıqda maraqlıdır. Mən bu sırada Çinin ingilisdilli "China Daily" qəzetini xüsusi qeyd etmək istərdim. Ümumilikdə, 100 milyondan çox çap və onlayn abunəçisi olan "China Daily" təkcə son bir neçə ayda öz saytında AZƏRTAC-ın iki böyük həcmli analitik məqaləsini yayıb. Beləliklə, Yer kürəsində milyonlarla insan Prezident İlham Əliyevin yürütdüyü siyasət, Azərbaycanın uğurları, ölkəmizdə həyata keçirilən islahatlar barədə ilk mənbədən ətraflı məlumat əldə edib.

Əməkdaşlıq etdiyimiz agentliklər Azərbaycanla bağlı xəbərləri istisnasız olaraq AZƏRTAC-dan alırlar. Bir qədər əvvəl dediyim kimi, onların arasında Çin kimi nəhəng ölkənin əsas informasiya yayımçısı - Sinxua agentliyi də var. Prezident İlham Əliyev 2018-ci ilin sentyabrında agentliyin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü zamanı Sinxua ilə AZƏRTAC-ın əməkdaşlığını yüksək qiymətləndirdi. Çinli həmkarlarımızın Bakıya həmin səfərindən sonra agentliklərimiz arasında xəbər mübadiləsi daha da gücləndi. Əməkdaşlığımızın nəticəsi olaraq, AZƏRTAC "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı platformasının təsisçi üzvü statusuna, bu nəhəng platformanın bütün imtiyazlarından istifadə etmək hüququna yiyələndi.

Bu mövzuya bir faktla yekun vurmaq istərdim: təkcə ötən il AZƏRTAC-ın üzv olduğu beynəlxalq və regional media qurumlarının, tərəfdaşlıq etdiyi milli informasiya agentliklərinin saytlarında Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, elmi mədəni və digər sahələrdə qazandığı uğurlara dair 15 minə yaxın xəbəri, videosu və fotosu yayılıb.

Azərbaycan kiçik və gənc dövlətdir, üstəlik, Ermənistanla müharibə vəziyyətində yaşayır. Düşmən bizə qarşı həm də informasiya müharibəsi aparır. Erməni təbliğat maşınının var gücü ilə yalan tirajladığı belə bir taleyüklü vaxtda Azərbaycan və Dağlıq Qarabağ haqqında tarixi həqiqətlərin dünyaya çatdırılması milli mətbuatımızın bir nömrəli vəzifəsidir. Biz bunun ən gözəl nümunəsini Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı gördük. Azərbaycan Prezidenti İlham Əliyev tarixi faktlara və təkzibolunmaz arqumentlərə söykənərək Ermənistanın baş naziri Nikol Paşinyanın yalan və uydurmalarını, saxta erməni mifini darmadağın etdi. Şahmat dili ilə desək, mat vəziyyətinə düşən Paşinyan dövlətimizin başçısının dərin məntiqi qarşısında söz tapmaqda aciz qaldı.

Prezidentimiz biz jurnalistlərə də, sözün yaxşı mənasında, dərs verdi. Göstərdi ki, informasiya savaşında qətiyyətli olmaq, müdafiə taktikasından hücum taktikasına keçmək zamanıdır. Münxendəki panel müzakirədən nəticə çıxaran AZƏRTAC bu istiqamətdə fəaliyyətini daha da gücləndirməyə başlayıb. Beynəlxalq media qurumlarında təmsilçilik, dünya KİV-ləri ilə tərəfdaşlıq əlaqələri bizə Azərbaycan həqiqətlərini mümkün qədər geniş coğrafiyada yaymaq imkanı yaradır və bundan maksimum yararlanmağa çalışırıq.

## *AZƏRTAC internet əsrində:* zamanın çağırışı və müasir trendlər

İnternetin Azərbaycana ayaq açması ilə media, xüsusən elektron informasiya vasitələri qarşısında hüdudsuz imkanlar açıldı. Xəbər buraxılışının həm həcmi, həm də operativliyi təsəvvürəgəlməz dərəcədə artdı. Təkcə bir faktı qeyd etmək kifayətdir: əgər veb-saytımız yaradılanadək biz gündə ən çoxu 60-70 xəbər buraxa bilirdiksə, indi bu göstərici on dəfədən çox artıb. AZƏRTAC hər gün 700-ə yaxın informasiya, video və foto xəbər hazırlayaraq öz kanalları ilə yayır.

Bu il AZƏRTAC-ın veb-saytının da yubileyidir. Agentlik ilk veb-resursunu 2000-ci ildə işə salıb. İlk vaxtlar saytımız üç dildə - Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərirdi. Sonradan veb-resursumuz zamanın tələblərinə uyğun olaraq dəfələrlə yenilənib, yeni dizayn və texnologiyalarla təqdim edilib. Hazırda agentliyin beş veb-resursu və iki veb-servisi (interaktiv xəritə), üç mobil tətbiqi var.

Sözsüz ki, ölkənin əsas informasiya təchizatçısı kimi AZƏRTAC-ın veb-resursu etibarlı və kiber hücumlara davamlı olmalıdır. Biz həyati əhəmiyyətə malik bu sınaqdan da üzüağ çıxdıq. 2016-cı ilin Aprel döyüşləri zamanı saytımız erməni hakerlərinin aramsız hücumlarına məruz qaldı. Lakin onlar nə qədər çalışsalar da, veb-resursumuza zərər vura bilmədilər.

Hazırda agentliyin saytı 8 dildə fəaliyyət göstərir. Eyni zamanda, videoların yayımı üçün beş dildə veb-resursumuz var. Altı il bundan öncə biz "Uşaq bilik portalı" yaratdıq. Bu sırada fotosaytımızı və zəif görənlər üçün resursları da qeyd etmək olar.

Veb-resurslarla yanaşı, yeni trendlərə də xüsusi önəm veririk. Sosial şəbəkələrin yeni peyda olduğu vaxtlarda belə təsəvvür yaranmışdı ki, ənənəvi media mövqelərini və aktuallığını itirəcək. Sonradan çoxlarına aydın oldu ki, sosial şəbəkə jurnalistika deyil. Müəllifi olmayan xəbər imzasız məktuba bənzəyir. Buna görə də tam əminliklə demək olar ki, sosial şəbəkələr heç vaxt peşəkar jurnalistikanı əvəz edə bilməz. Lakin düşünürəm ki, ənənəvi media onlayn platformalardan istifadə etməlidir, yəni, orada həm onun auditoriyası cəmlənib, həm də düzgün istifadə etdikdə sosial şəbəkələr potensial informasiya mənbəyidir.

**Ardı Səh. 11**

# AZƏRTAC-100: Bir əsrlik yola beş fərqli zaman nöqtəsindən baxış

*İlk xəbəri 1920-ci il martın 2-də işıq üzü görmüş Azərbaycan Dövlət İnformasiya Agentliyi haradan haraya gəlib*

Əvvəli Səh. 10

AZƏRTAC sosial şəbəkələrdə işin qurulmasına hələ 2011-ci ildə başlayıb, bununla bağlı struktur yaradılıb. Hazırda bizim 30-dan çox sosial şəbəkə və messenger profilimiz var. Onların dinamik artımına nail olmaq prioritetlərimizdən biridir.

Müasir dövrdə sosial şəbəkələr və mobil texnologiyalar tandemi informasiya işinə çox güclü təsir göstərir. Xəbər agentliyi olaraq, bu iki texnoloji tendensiyanı diqqətdə saxlayırıq. Bütün veb-resurslarımızın əlçatan və istifadəçi üçün rahat olmasını təmin etmişik və bu istiqamətdə müntəzəm iş aparırıq. Nəticə göz qabağındadır: 2018-ci illə müqayisədə 2019-cu ildə mobil cihazlar vasitəsilə bizim informasiya resurslarına müraciət 50 faiz, videolara baxış isə 75 faiz artıb. "YouTube" kanallarımızda videoxəbərlərə baxışların 83 faizi mobil cihazların payına düşür.

Son statistikaya nəzər salsaq görərik ki, Azərbaycanda 5 milyona qədər aktiv mobil internet istifadəçisi var. Təxminən 3,2 milyon insan mütəmadi olaraq "Facebook" və "Instagram"dan istifadə edir. "Facebook"dan istifadənin 96 faizi mobil cihazların payına düşür. Bu, bir dünya tendensiyasıdır. 2019-cu ilin statistikasına əsasən, qlobal miqyasda 98 faiz "Facebook" istifadəçisi öz profillərinə mobil cihazlardan daxil olur. Bu da öz növbəsində informasiyanın istehsalı və istehlakı, təqdimatı, süründən kimi parametrlərə təsir göstərir, bizi mobil resurslarımızı daha cəlbedici etməyə, daha təkmil platformaya çevirməyə yönəldir.

Zamanın digər bir çağırışı multimedia və videoxəbər istehsalıdır. AZƏRTAC-da videoxəbər xidməti 2010-cu il aprelin 22-də Prezident İlham Əliyevin Sərəncamına əsasən yaradılıb. Yeni texnologiyaların tətbiqinin önəmini vurğulayan dövlətimizin başçısı bu sahənin inkişafını vacib hesab edib. Ölkə üzrə ilk ixtisaslaşmış videoxəbər studiyası məhz AZƏRTAC-da tətbiq olundu və biz ənənəvi informasiya materialları ilə yanaşı, videoxəbərlər də yaymağa başladıq. O vaxtdan 10 il keçib və videoformatın qlobal miqyasda trend olduğunu artıq hamı görür. Məhz gələcəyə hədəflənmiş həmin addım bu gün agentliyimizi videoməhsul istehsalçıları sırasında öncül yerlərə çıxarıb. İndi bizim ayrıca videoportalımız var. AZƏRTAC regionda yeganə agentlikdir ki, 5 dildə (Azərbaycan, ingilis, rus, fransız və alman) video yayır. Mühüm dövlət tədbirləri, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın səfərləri, iştirak etdikləri tədbirlər, keçirdikləri görüşlər barədə videolar saytımızla yanaşı, "YouTube" kanallarımızda da yayılır. Videosaytımızda indiyədək minlərlə müsahibə və reportaj yerləşdirilib. Burada ölkə həyatının hər bir sahəsinə aid videomateriallar tapmaq mümkündür.

Günümüzün müəyyən trendlərini sosial şəbəkələr diktə edir. Bu, özünü əsasən informasiyanın 10 il öncə ağlasığmaz görünən təqdimat formalarında büruzə verir. Məsələn, "Instagram"da "Tarixçə" üçün hazırlanan videoformat sırf mobil cihazların ekran ölçülərinə hesablanıb. Sosial şəbəkə və mobil cihaz tandemi multimedia jurnalistikasına tamamilə yeni yanaşmalar gətirir. Agentliyimiz bu trendi də nəzərə almaqla, həmin formatlardan geniş istifadə edir. Təsadüfi deyil ki, videolarımız agentliyin sosial şəbəkələrində ən populyar məhsullardan biridir.

Biz videoxəbərlə yanaşı, digər multimedia məhsulları hazırlayırıq. Buraya infoqrafika, slaydşou, videoqrafika, "360" videolar aiddir. Videolarda xarici dillərdə mətnin nitqə neyron çevrilməsinin Amazon texnologiyasından istifadə edirik. Şirkətin agentliyimizə təqdim etdiyi bu proqram təminatı özüöyrənən texnologiyaya əsaslanır. Süni intellekt informasiya agentlikləri üçün də əlçatan olub. Xəbərlərin və hətta videoların süni intellekt tərəfindən hazırlanması günümüzün reallığıdır. AZƏRTAC gələcək fəaliyyətini məhz belə qabaqcıl texnologiyaların tətbiqinə yönəltmək niyyətindədir.



2019-cu il 7 noyabr, Seul. Koreya Respublikasının Prezidenti Mun Ce-in ilə görüş zamanı

Görülən işlərin müsbət nəticələri xəbərlərə baxış sayında real əksini tapır. 2019-cu ildə agentliyimizin veb-resurslarında, sosial şəbəkələrdəki səhifələrində və üzvü olduğu beynəlxalq media təşkilatlarının portallarındakı xəbər, foto və videolarına müraciətlərin sayı 73 faiz yüksəlib. Bu, hətta proqnozları xeyli üstələyib. Eyni tendensiya videoxəbərlərə baxışlarda da müşahidə edilir.

## Ölkə mətbuatında AZƏRTAC-ın yeri və rolu barədə bəzi düşüncələr

İnformasiya güclü silahdır. O, müsbət mənada səfərbəredici təsirə, mənfi mənada dağıdıcı gücə malikdir. Məkrli niyyət güdən xəbər xalqları, dinləri üz-üzə qoya, münaqişələr, qarşıdurmalar yarada bilər. Təsadüfi deyil ki, feyk xəbərlər bu gün dünyanı narahat edən qlobal problemə çevrilib.

Azərbaycana gəlincə, ümummilli lider Heydər Əliyev milli mətbuatımızın üç əsas prinsipini müəyyənləşdirib: dövlətçiliyə xidmət, azərbaycançılıq ideologiyasının təbliği və ümumbəşəri dəyərlərə hörmət. AZƏRTAC Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedir. Onun ölkə mətbuatında yeri və rolu, ilk növbədə, bu meyarlarla qiymətləndirilməlidir.

Bu gün Azərbaycanda söz və mətbuat azadlığı tam təmin olunub. Xəbər agentliklərinin, qəzet və jurnalların, teleradioların ümumi sayı 5 mini, internet portallarının sayı 20 mini ötür. Belə bir vaxtda heç bir hal istisna olunmur. Kimsə qrup mənafelərindən, kimsə şəxsi maraqlardan çıxış edə bilər. Yaxud bir başqası ucuz sensasiya arxasınca qaçır, bu yolla auditoriya toplamağa, reytinq qazanmağa çalışır.

Mətbuat azadlığı, İKT-nin yaratdığı hədsiz imkanlar həyatımızda çox şeyi dəyişib və dəyişməkdədir. Fəqət, informasiyanın yüz il əvvəl olduğu kimi, bu gün də dəyişməz meyarları var. Bu, xəbərin dürüstlüyü, obyektivliyi və qərəzsizliyidir. KİV-lər arasında kəskin rəqabətə baxmayaraq, AZƏRTAC bu prinsiplərə daim sadiqdir. O, heç vaxt yoxlanılmamış, dəqiqləşdirilməmiş xəbər yaymır, sensasiya, yaxud süni reytinq arxasınca qaçmır. Əvəzində oxucu inamı və etibarı qazanır. "Əgər AZƏRTAC yazıbsa, deməli, düzdür", - insanların dilindən eşitdiyimiz bu sözlər bizim ən böyük mükafatımız, uğur göstəricimizdir. İnternet xəbər məkanını qloballaşdırıb. İndi dünyanın istənilən nöqtəsində istənilən saytı izləmək mümkündür. Az qala səmadakı ulduzların sayından çox olan saytlar arasında parlamaq, diqqət çəkmək heç də hər agentliyə nəsib olmur. AZƏRTAC bu baxımdan ölkəmizin xəbər agentlikləri arasında çoxlarından irəli getsə də, Azərbaycan həqiqətlərini dünyaya daha çox çatdırmaq üçün bütün mümkün vasitələrə əl atır. 150-dək xarici xəbər agentliyi ilə qurulan əməkdaşlıq əlaqələri, getdikcə genişlənən informasiya mübadiləsi, beynəlxalq media qurumlarında fəal təmsilçilik bu qəbildəndir.

AZƏRTAC-ın ölkə mediasında yerini və rolunu səciyyələndirən əsas amillərdən biri vaxtilə Ulu Öndərimizin, sonradan isə Prezident İlham Əliyevin ona ayırdığı diqqət, Birinci vitse-prezident Mehriban Əliyevanın verdiyi dəstəkdir. Bu diqqət və dəstək sayəsində agentliyimiz ən müasir texnologiya ilə təchiz olunub. Hazırda xarici ölkələrdə AZƏRTAC-ın 21 müxbir məntəqəsi fəaliyyət göstərir. Xüsusi müxbirlərimiz fəaliyyət göstərdikləri ölkələrin mətbuatında Azərbaycanla bağlı yazılarla müntəzəm çıxış edirlər. Prezidentin Sərəncamına əsasən inşa olunmuş yeni ofisimiz yaxın vaxtlarda kollektivimizin istifadəsinə veriləcək.

Əlbəttə, AZƏRTAC-ın bugünkü hər bir uğurunun arxasında gərgin iş və yaradıcılıq axtarışları ilə yanaşı, ilk növbədə, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, ölkəmizin dünyada artan nüfuzu, həyatın bütün sahələrini əhatə edən köklü islahatlar dayanır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Dünya İqtisadi Forumunun illik "İnklüziv inkişaf indeksi" hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında üçüncü yerə yüksəlib. Agentliyimizin kollektivi də öz fəaliyyətini ölkəmizin misilsiz inkişafına uyğun qurmağa, informasiya işini beynəlxalq standartlar səviyyəsinə çatdırmağa çalışır. Əldə olunan nailiyyətlərlə kifayətlənməyərək bütün qüvvə və bacarığını dövlətimizin başçısının milli mətbuatımız qarşısında qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsinə səfərbər edir. Yeniləşmək və yenə də yeniləşmək - bu gün üçün də, gələcək üçün də hədəfimiz budur.

Beləliklə, AZƏRTAC-ın bir əsrlik inkişaf yoluna zamanın beş fərqli nöqtəsindən baxmağa çalışdıq. Onun Xalq Cümhuriyyəti və sovet dönəmində, ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, dövlət müstəqilliyimizin bərpasından sonrakı dövrdə keçdiyi yola qısaca nəzər saldıq. Nəhayət oxucunu bu günümüzün AZƏRTAC-ı ilə tanış etdik. Tarixə hətta ötəri baxışdan aydın görmək olur ki, ictimai-siyasi quruluşdan, dövrlərin ziddiyyətlərindən, bir-birini əvəzləyən tənəzzül və dirçəlişdən asılı olmayaraq, bu 100 illik yol Vətənə və xalqa xidmət, jurnalistikanın əzəli və əbədi dəyərlərinə sədaqət yoludur.

**Aslan Aslanov**
**AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti**

# YAP Binəqədi rayon təşkilatında hesabat yığıncağı keçirilib





***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının 2019-cu ilin yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirilib. Yığıncağın rəsmi hissəsi başlamazdan öncə rayon təşkilatının ötən ilki fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.***



Tədbiri geniş hesabat məruzəsi ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov dövlət başçısı, YAP-ın Sədri İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 2019-cu ildə həyata keçirilən islahatlar haqqında ətraflı məlumat verib. R.Göyüşov rayon təşkilatı tərəfindən görülən işlərdən, keçirilən çoxsaylı tədbirlərdən danışıb. Partiyaya üzvlükdə kəmiyyətə deyil, keyfiyyətə üstünlük verildiyini və ötən il üzvlərin sayının 415 nəfər artaraq 15944 nəfərə çatdığını qeyd edib. Hesabat dövründə ölkəmizdə keçirilən V çağırış bələdiyyə seçkilərinə hazırlığın yüksək səviyyədə qurulmasından və partiyanın möhtəşəm qələbəsindən bəhs edib. Ötən ilin dekabr ayının 5-də ölkə Prezidentinin Sərəncamına əsasən, Milli Məclisə VI çağırış seçkilərə start verildiyini və rayon təşkilatı tərəfindən təsdiq edilmiş Fəaliyyət Planına diqqət yönəldib.

Hesabat məruzəsindən sonra 2020-ci ilin I yarımilliyi ərzində görüləcək işlərlə bağlı məlumat verilib. Hesabat iclasında çıxış edən YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov partiyanın tarixi keçmişindən və bugünkü uğurlardan danışıb.Yarandığı gündən dövlətimizin və xalqımızın maraqlarını, Ulu Öndər Heydər Əliyevin ideyalarını əldə rəhbər tutaraq, çoxsaylı uğurlara imza atdığını söyləyib. Bu gün partiyanın dünyanın bir sıra iqtidar və nüfuzlu siyasi partiyaları ilə ikitərəfli münasibətlər qurduğunu və beynəlxalq əlaqələrini daha da möhkəmləndirdiyini bildirib. YAP-ın dünənin, bu günün və sabahın partiyası olaraq gələcəkdə də möhtəşəm qələbələr qazanacağına əminliyini bildirib. Ötən ildə keçirilən Bələdiyyə seçkilərinə və digər seçkilərin nəticələrinə toxunaraq xalqımızın bu partiyanın namizədlərinə hər zaman etimad göstərdiyini vurğulayıb. Bunun məhz dövlət başçısı, YAP-ın Sədri İlham Əliyevin nüfuzu və gördüyü işlərin nəticəsi olduğunu söyləyib.

YAP Binəqədi rayon təşkilatının idarə heyətinin üzvü Kamaləddin Qafarov çıxışında ölkəmizdə bütün sahələrdə uğurlara və irəliləyişlərə nail olunduğunu söyləyib. Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsini ölkəmizdə həyata keçirilən islahatların tərkib hissəsi olduğunu bildirib. Azərbaycan demokratiya yolunda uğurla irəliləyir və hakimiyyətin bütün qollarında yeniləşmə, müasirləşmə, kadr islahatları məhz bu islahatların mühüm tərkib hissəsidir.

Hesabat iclasında YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin sədr əvəzi Anar Əliyev uğurlu gənclər siyasətindən, gənclərə göstərilən etimaddan, rayon təşkilatının gənclər birliyi tərəfindən görülən işlərdən, Binəqədi rayonu 306 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru, YAP fəalı Gültəkin Ədilova isə təhsilin inkişafına dövlət qayğısından və Bələdiyyə və Milli Məclisə seçkilərdə YAP-ın qələbəsindən danışıb.

Binəqədi rayon icra hakimiyyəti başçısının birinci müavini, YAP Binəqədi rayon təşkilatı idarə heyətinin üzvü İlqar Süleymanov çıxışında ölkəmizdəki ictimai-siyasi sabitlikdən və görülən işlərdən danışıb. Dövlət başçısı İlham Əliyevin xalqın maraqlarından irəli gələn siyasi kursunun tam dəstəkləndiyini və bunun bariz nümunəsi kimi partiya sıralarının günbəgün artdığını söyləyib.

Yığıncağın rəsmi hissəsi bitdikdən sonra YAP Binəqədi rayon təşkilatının fəaliyyətində fəal iştirak edən bir qrup partiya fəalı Fəxri Fərmanla təltif edilib, rayon təşkilatı sıralarına yeni üzv qəbul edilmiş bir qrup şəxsə üzvlük vəsiqəsi təqdim edilib.

***ZÜMRÜD BAYRAMOVA***

# İntellektualların “Nar” kuboku uğrunda mübarizəsi başladı



Gənclərin maariflənməsi məqsədilə müxtəlif bilik yarışlarına hər zaman dəstək olan “Nar”, bu il də “Breyn Rinq” intellektual oyununa baş sponsorluq edəcək. Artıq 8 ildir ki, mobil operatorun baş sponsorluğu ilə yayımlanan ölkənin ən maraqlı intellektual yarışının 15-ci mövsümü start götürüb. “Breyn Rinq” bilik yarışının builki mövsümündə respublikanın 17 bölgəsi və 11 ali məktəbini təmsil edən 36 komanda mübarizə aparacaq. Yeni mövsümdə yarışda bəzi dəyişikliklər edilib. Belə ki, komandalar 3 divizina bölünüb: region, universitet, Bakı və sponsor komandaları. Hər divizion üzrə qalib gəlmiş komandalar finalda “Nar” tərəfindən təsis edilmiş “Nar” kuboku uğrunda mübarizə aparacaq.

Qeyd edək ki, yarışlar hər həftənin bazar günü saat 20:00-da İctima Televiziyada yayımlanır. Televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə hər il olduğu kimi bu il də xüsusi müsabiqə keçiriləcək. Belə ki, verilişin yayımı zamanı “Nar”ın “Facebook” səhifəsində qoyulan suala ən tez cavab verən izləyicilər xüsusi hədiyyələr qazanacaqlar. “Breyn Rinq” həvəskarları intellektual oyunu izləməklə yanaşı, həm də “Nar”dan hədiyyə qazanmaq şansı əldə edirlər.

Qeyd edək ki, “Nar” gəncləri stimullaşdırmaq üçün müxtəlif bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir.

# Nəsimidə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib



YAP Nəsimi rayon təşkilatı və Azərbaycan Universitetinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbir iştirakçıları Azərbaycan Universitetində təşkil olunmuş “Xocalı soyqırımı obyektivlərdə” fotosərgisi ilə tanış olublar.



Anım mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Xocalı soyqırımı şəhidlərinin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi yolunda canından keçmiş şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru, professor Yusif Qasımov Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımından artıq 28 il ötdüyünü bildirib. Xocalı soyqırımının erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsi olduğunu bildirib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Xocalı soyqırımının təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu bildirib: “Bu qətliamın qabaqcadan düşünülmüş qaydada, milli mənsubiyyətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən, məhz soyqırımı olduğunu təsdiqləyir. Bu soyqırımı nəticəsində, 613 nəfər qətlə yetirildi, 1275 nəfər əsir götürüldü, 150 nəfər itkin düşdü”.

Xocalı soyqırımına siyasi-hüquqi qiymətin, məhz Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra verildiyini vurğulayan rayon təşkilat sədri diqqətə çatdırıb ki, Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də “Xocalı Soyqırımı Günü haqqında” xüsusi qərar qəbul edib.

Tədbirdə çıxış edən Azərbaycan Universitetinin ictimai elmlər kafedrasının dosenti Boran Əziz “Xocalı soyqırımı haqqında həqiqətlər”, Azərbaycan Universiteti, Azərbaycanın yeni və ən yeni tarixi ixtisası üzrə magistratura I kurs tələbəsi, Nərmin Qasımova “Xocalıya ədalət kampaniyası və nəticələri” mövzusunda məruzələrlə çıxış ediblər.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyəsi ilə Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, publisist Səriyyə Müslümqızının yeni layihəsi olan “Xocalı - zülmət bir gecə” filmi nümayişi olunub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İnsan haqları - insanların malik olmağa haqqı olduğu əsas hüquqlar və azadlıqlar

***İnsan haqlarının əsas məğzi ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdırlar və bu hüquqlar izahata ehtiyac duyulmadan hər kəsə aid edilir. Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları var. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Vətəndaşın hüquqları şəxsin müəyyən dövlətə məxsusluğu ilə bağlıdır. Onlar dövlət tərəfindən müdafiə olunur. İnsan hüquqları hakimiyyət üzərində nəzarət vasitəsi kimi insan hüquqları ilə müəyyən olunan azadlıq həddini keçməməli olan dövlətin qeyri-məhdud hakimiyyətinin məhdudlaşdırıcısıdır.***

İnsan hüquqları institutu məzmun etibarilə müxtəlif, eyni statusa sahib olmayan hüquqları tədqiq edir və qoruyur. Lakin, mülkiyyət hüququ təbii və əsaslı hüquq olduğu halda, konkret bir həyat tərzi ətrafında birləşməyi təmin edən həmrəylik hüquqlarının mahiyyəti hələ tam aydınlığa qovuşmayıb. Habelə insan hüquqları institutu mənbə etibarilə, beynəlxalq sənədlərə söykəndiyi kimi, milli qanunvericilik müddəalarına da əsaslanır.

İnsan haqları, demək olar ki, dünyanın bütün ölkələri tərəfindən qəbul edilir. Bu məsələnin universallığından çox vaxt bu və ya digər dövlətlərdə insan haqlarından sui-istifadə halları əsas götürülərək onlara qarşı hərbi və iqtisadi təzyiq göstərmək üçün istifadə edilir. Konstitusiyalarda əsas hüquqların və beynəlxalq razılaşmaların köməyi ilə insan haqları inkar olunmaz bir hüquq kimi qəbul edilmişdir. Beynəlxalq aləmdə insan haqları BMT-nin deklarasiyası ilə qanunləşdirilmişdir.

İnsan haqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur:

Hər bir insan onun mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir.

İnsan hüquqlarının müdafiəsinin daha real tamininin ən yaxşı vasitəsi onların milli qanunvericiliyə transformasiyasıdır. Qeyd etdiyimiz kimi, AR Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsində deyilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Dövlətin konstitusiya quruluşu məfhumu isə ilk növbədə, hüququn dövlət hakimiyyətinə münasibətdə aliliyi və insan hüquq və azadlıqlarının ali dəyərlər kimi tanınması və təmin olunması ilə şərtlənir. Odur ki, respublikamız müasir demokratik dövlət qurmaq üçün Konstitusiyada bu iki başlıca amili nəzərə almaya bilməzdi. Konstitusiyanın 7- ci maddəsinin ikinci hissəsinə görə, Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Konstitusiyanın 12-ci maddəsində isə insan və vətəndaş hüquqlarının və azadlıqlarının ali dəyərlər kimi tanınması və təmin olunmasını şərtləndirən dövlətin ali məqsədi bəyan olunur. Bu müddəaların konstitusion təsbiti respublikamızı konstitusiya quruluşlu dövlət kimi xarakterizə etməyə əsas verən ilkin amildir. Konstitusiyanın bu müddəasını insanın, onun hüquq və azadlıqlarının cəmiyyətdə ali nemət kimi dəyərləndirildiyini, dövlətin, onun bütün orqanlarının və vəzifəli şəxslərin fəaliyyətinin son nəticədə insan hüquqlarının və azadlıqlarının təmin olunmasına yönəldilməli olduğunu müəyyən edən norma kimi də xarakterizə etmək olar. Hər bir demokratik hüquqi dövlət insan hüquqları və azadlıqları sahəsində bir sıra mühüm öhdəliklər götürür. Bunlarsız insan hüquq və azadlıqlarının heç bir əhəmiyyəti ola bilməz. Bu öhdəliklərə insan hüquqları və azadlıqlarının tanınması, insan hüquqlarına və azadlıqlarına riayət olunması, insan hüquqları və azadlıqlarının təmin olunması və insan hüquqları və azadlıqlarının müdafiəsi ilə bağlı məsələlər daxildir. İnsan hüquqlarının və azadlıqlarının dövlət tərəfindən tanınması onu ifadə edir ki, insanın anadangəlmə təbii, pozulmaz və ayrılmaz hüquqları, həmçinin hamılıqla qəbul edilmiş beynəlxalq normalarla nəzərdə tutulmuş hüquq və azadlıqları tam həcmdə Konstitusiya və qanunlarla təsbit edilməlidir. İnsan hüquqları və azadlıqlarının təmin olunması dövlət hakimiyyəti və yerli özünüidarə orqanları tərəfindən insan hüquq və azadlıqlarının realizəsi üçün zəruri siyasi, hüquqi, iqtisadi və mənəvi-ideoloji təminat mexanizmlərinin, habelə hər bir şəxsin bu təminat mexanizmlərindən sərbəst yararlanması imkanının yaradılması ilə şərtlənir. İnsan hüquqları və azadlıqlarının müdafiəsi dövlət hakimiyyəti və yerli özünüidarə orqanları və onların vəzifəli şəxsləri tərəfindən insan hüquqları və azadlıqlarının pozulması hallarının qarşısını almağı və müvafiq hüquqi təminatlar sistemi yaratmağı, habelə pozulmuş hüquqların bərpası üzrə məhkəmə və inzibati orqanların təsirli fəaliyyətini nəzərdə tutur. Azərbaycan Respublikasının Konstitusiyası hər şeydən əvvəl, insan hüquqları və azadlıqlarının hüquq və azadlıqların universallığı, hüquq və azadlıqların toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı, insan hüquqları və azadlıqlarına dair beynəlxalq hüquq normalarının üstünlüyü, hüquq və azadlıqların təminatlılığı və hüquq və azadlıqların birbaşa qüvvəsi kimi əsas prinsiplərini müəyyən edir. Belə ki, Konstitusiyanın 24-cü maddəsində yazılıb ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Konstitusiyanın bu müddəası insan və vətəndaş hüquqları və azadlıqlarının iki mühüm xüsusiyyətini ifadə edir. Birincisi, hüquq və azadlıqlar universal xarakter daşıyır, cəmiyyətin və dövlətin siyasi sistemindən, sosialiqtisadi durumundan, dövlətçiliyin tarixi inkişaf xüsusiyyətlərindən asılı deyil. Hüquq və azadlıqların universal xarakteri həm də onların yaranması əsaslarını və mexanizmini ehtiva edir. Belə ki, Konstitusiyaya görə, şəxsin hüquq və azadlıqlarının yaranması onun doğulması faktı ilə şərtlənir, başqa hər hansı şərt tələb olunmur. Başqa sözlə, insan anadangəlmə, yəni doğulduğu vaxtdan etibarən Konstitusiya və qanunlarla elan olunmuş hüquq və azadlıqlara malik olur, onların daşıyıcısına çevrilir. Konstitusiyada təsbit olunan hüquq və azadlıqların ikinci mühüm xüsusiyyəti isə onların toxunulmaz, pozulmaz və ayrılmaz olmasıdır. Toxunulmazlıq hüquq və azadlıqların ən mühüm xüsusiyyətlərindən biri olub, onlara qarşı hər cür qanunsuz və özbaşına qəsdin yolverilməzliyini ifadə edir. Pozulmazlıq insan hüquqları və azadlıqlarının aliliyini və birbaşa qüvvəsini, onların hər hansı normativ hüquqi akt və ya vəzifəli şəxs tərəfindən ləğv olunmasının, yaxud onların həyata keçirilməsinin qanunla müəyyən edilməyən hallarda məhdudlaşdırılmasının yolverilməməzliyini müəyyən edir. Bu xüsusiyyət, ilk növbədə, onu ifadə edir ki, dövlət heç bir halda insanı onun konstitusiya ilə müəyyən edilən hüquqlarından və azadlıqlarından məhrum edə bilməz. Ayrılmazlıq hüquq və azadlıqların insan iradəsindən asılı olmayaraq mövcud olduğunu, şüura, iradəyə malik ictimai varlıq kimi insanın təbiətindən irəli gəldiyini, onu xarakterizə edən zəruri faktor olduğunu əks etdirir. Hüquq və azadlıqların toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı Konstitusiyanın 155-ci maddəsində təsbit edilmiş belə bir müddəa ilə də təmin olunur ki, Konstitusiyanın insan hüquqları və azadlıqlarını nəzərdə tutan müddəaların ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquqi aktlarda nəzərdə tutulduğundan artıq məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz. İnsan hüquqları və azadlıqlarının universallığı, toxunulmaz, pozulmaz və ayrılmazlığı kimi prinsiplərin konstitusion təsbiti iki başlıca məsələni istisna etmir: birincisi, hüquq və azadlıqlar mütləq, qeyri-məhdud xarakter daşımır. Konstitusiyanın 24-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulduğu kimi, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Bu isə hüquq və azadlıqlara malik olmanın onların həyata keçirilməsi zamanı şəxsə heç nə ilə məhdudlaşmayan davranışı həyata keçirməyə imkan vermir. İnsan hüquq və azadlıqları, ilk növbədə, digər şəxslərin eyni xarakterli hüquq və azadlıqları ilə məhdudlaşır. Yəni, şəxsin öz hüquqlarını və azadlıqlarını həyata keçirməsi, başqalarının müvafiq hüquq və azadlıqlarına heç bir xələl gətirməməli və onları məhdudlaşdırmamalıdır. Hər bir şəxsin öz hüquqlarını və azadlıqlarını müdafiə etmək imkanı qeyd olunan müddəa ilə heç bir ziddiyyət təşkil etmir. Belə ki, müdafiə qanunla müəyyən olunmuş qaydada, qanunla qadağan olunmayan üsul və vasitələrdən istifadə edilməklə həyata keçirilməlidir. İkinci, ondan ibarətdir ki, dövlət yalnız müəyyən şərtlər daxilində insan hüquqları və azadlıqlarını məhdudlaşdıra bilər. Belə məhdudlaşdırmalar ya bilavasitə Konstitusiyanın özündə nəzərdə tutulmalı və ya Konstitusiya müvafiq hüququn qanunlar əsasında məhdudlaşdırılması imkanını müəyyən etməlidir. Buna görə də, Konstitusiyada hüquq və azadlıqlar sadalanarkən bir çox hallarda onların hansı hallarda və hansı şərtlər daxilində qanunla məhdudlaşdırıla bilməsi imkanı da nəzərdə tutulur. Belə məhdudlaşdırmalar qanun əsasında həyata keçirildiyi üçün ümumi və daimi xarakter daşıyır və konkret vəziyyətlərdən asılı deyildir. Digər bir məsələ isə insan hüquq və azadlıqlarının deyil, bu hüquq və azadlıqların həyata keçirilməsinin məhdudlaşdırılması ilə bağlı olan məsələdir. Belə ki, Konstitusiyanın nəzərdə tutduğu konkret vəziyyətlərdə dövlət insan hüquqları və azadlıqlarının həyata keçirilməsini qismən və müvəqqəti məhdudlaşdıra bilər. Bu kimi məhdudlaşdırmalar zamanı dövlət bir sıra şərtlərə riayət etməlidir ki, bu şərtlər də beynəlxalq hüquqi aktlarda, məsələn, mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda, habelə, milli qanunvericilikdə, o cümlədən, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununda öz əksini tapıb. Qanunun 3-cü maddəsində insan hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına dair bir sıra tələblər, o cümlədən, məhdudiyyətin qanunla müəyyən olunması, hüquq və azadlıqların konstitusion məzmununu dəyişməməsi kimi və sair tələblər nəzərdə tululur. Bir sıra hüquq və azadlıqların məhdudlaşdırılması, ümumiyyətlə, yolverilməzdir Azərbaycan Respublikasinda insan hüquqlarinin müdafiəsi üzrə milli fəaliyyət planinin təsdiq edilməsi haqqinda Azərbaycan Respublikasi Prezidentinin sərəncaminda deyilir ki, Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarınınmüdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş insan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilmişdir. Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradılmış, hüquq-mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişlənmiş, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılmışdır. Hazırda Azərbaycanın yaşadığı yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Qarşıdan gələn illər üçün Azərbaycan Respublikasının normativ hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Avropadakı küt baltalar

## Yaxud onların sapları da çürükdür

***Dağıdıcı müxalifətin hökumətə deyil, dövlətə qarşı müxalif olması haqda çox deyilib. Amma bu qruplaşma təkcə dövlətin yox, xalqın, onun gələcəyinin də qəsdinə durub. Elə bu günlərdə keçirilən parlament seçkiləri ilə bağlı radikal müxalifətin adət etdikləri ənənəvi icazəsiz mitinq cəhdinin nə qədər boş və lazımsız olduğu praktikada aydınlaşandan sonra onu yenidən təkrarlamaq nə deməkdir? Axı sübut olundu ki, bununla heç nəyə nail olmaq mümkün deyil. Elə isə, insanları yenidən qanunsuz şəkildə küçələrə çağırmaqda məqsəd nə ola bilər? Bu sualda bir həlledici söz var ki, cavab məhz orada gizlənib: Küçə! Bunlar, sadəcə olaraq, Azərbaycanın taleyinin küçədə həll olunmasını istəyirlər. Niyyətləri odur ki, dövlətin gələcəyilə bağlı bütün vacib suallar küçədə müzakirə olunsun. Hər şey küçə səviyyəsinə endirilsin.***

Azərbaycan artıq dünya birliyində demokratik prinsiplərin inkişafına önəm verən, müstəqil siyasət yeridən dövlət kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası, düşünülmüş xarici siyasət, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən köklü islahatlar dövlətimizə yeni uğurlar qazandırmış, onun mövqeyini daha da möhkəmləndirmişdir.



### Formalaşmış satqınlar...

Bu, deyilənlərin nəticəsidir. Bu belə olmasaydı, AXCP sədri Ə.Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı, Müsavatın sabiq başqanı İsa Qəmbər və bunların yetirmələri Gültəkin Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl və... satqınlar xalqı, dövləti, Vətəni sata-sata belə formalaşır. Sənin xalqın öz demokratik seçimini etsin, amma sən də ATƏT-in yalançı bir rəyinə aldanıb denən ki, mitinq keçirəcəm və yaxud seçkinin nəticəsini qeyri-legitim hesab edəcəm. Bunlar mənasız şeylərdir. Hesab edirik ki, bu seçki xalq-iqtidar birliyini daha da möhkəmləndirdi. Xalqımız və dövlətimiz üçün uğurlu oldu.

### Satqınçılığın gerçək üzü...

Bu satqınçılığın gerçək üzü Sevinc Osmanqızıdır! Bu o S.Osmanqızıdır ki, bu gün sosial şəbəkələrdə onun-bunun sifarişlərini canla-başla həyata keçirən, əvəzində filan qədər dollar, avro əldə edənlərə, Vətəninin maraqlarını amerikan, ingilis və s. ölkələrin xəfiyyələrinə satan S.Osmanqızıdır! Bir fərd ki, öz ailəsinə, soyadına qarşı xəyanət edirsə, ondan bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür.

Ümumiyyətlə, nəinki milli maraqları, eləcə də vicdanını, mənəviyyatını, ləyaqət və şərəfini, hətta ailə maraqlarını (!) pula satan S.Osmanqızı zaman-zaman Azərbaycan dövləti tərəfindən mənzillə mükafatlandırılan jurnalistləri də çirkin niyyətinin hədəfinə çevirir. Nədir onun bu məsələdəki maraqları? Bəllidir - bu gün Azərbaycan dövlətinin çörəyini yeyən, Vətəninin suyunu içən hər kəs Sevincə və onun kimi siyasiləşmiş qrant vassallarına heç də xoş olmur. Bilirsinizmi niyə? Ona görə ki, mən, o, digər vətənsevər jurnalistlər, qələm adamları heç vaxt (!) öz peşəsinə, dövlətinə, dövlət başçısına xəyanət etməyib, etməyəcək də! Xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır. Lakin Sevinc kimiləri üçün isə, xəyanət etmək ən adi bir məsələdir. Ondan bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür.

Parlament seçkiləri bitər-bitməz ənənəyə uyğun olaraq, ötən bazar ertəsi AXCP sədri Ə.Kərimli yenidən "Osmanqızı" TV-də canlı yayıma çıxdı. Hər zaman olduğu kimi, bu dəfə də şər və böhtanlarını, qərəzli fikirlərini ictimaiyyətə sırımağa çalışdı. Amma uğursuz "siyasətçi" və istedadsız bloger yenə də xalqın virtual etirazı ilə qarşılaşdı.

Veriliş boyu "youtube" istifadəçiləri Ə.Kərimlinin fikirlərini rədd etdiklərini bildirir və canlı yayımı "dislike" edirdilər. Yayım ərzində, təxminən, 2100-dən artıq sosial şəbəkə fəalı Ə.Kərimlinin çıxışını bəyənmədiyini bildirdi. Baxmayaraq ki, başda S.Osmanqızı olmaqla, AXCP-nin bütün trolları "like" üçün insanlara yalvarırdılar, lakin bu da heç bir nəticə vermədi. Nəticədə aşağılayıcı ifadələrlə təhqir edildilər. Çünki onun danışdıqları və Osmanqızının qərəzli mövqeyi, efirdə əzilibbüzülməsi izləyicilərdə ancaq ikrah doğurur. Eyni zamanda, ötən 26 il ərzində baş verənlər pxisoloji olaraq insanların kəskin münasibətini ortaya qoyurdu...

Göründüyü kimi, Ə.Kərimli haqqında ictimaiyyətdə formalaşmış fikirlər, artıq müxalifət daxilində də yaranıb. Artıq hər kəs bilir ki, Ə.Kərimli elə 1992-ci ildəki adamdır, düşüncəsi və diktator xisləti ilə hələ də dəyişməyib.

### Sevinc Osmanqızı - Əli Kərimli fərq yoxdur

Ə.Kərimli düşüncəsi, diktator xislətliliyi eyni ilə S.Osmanqızında da var. Mütəmadi olaraq, sosial şəbəkələrdən istifadə edən insanlar, yaxşı bilirlər ki, Sevinc Osmanqızı yalan danışmağı çox yaxşı bacarır. Çünki Osmanqızı həmin 5-10 minlərin yaşadığı Azərbaycanın əleyhinə olan planlarda yer alıb. S.Osmanqızı bu qədər yalanla, Vətəni satmaqla qrant almaq birbaşa ermənilərin vurub partlatdığı vertolyotda şəhid olan atası Osman Mirzəyevin ruhunu təhqir etmiş olur. S.Osmanqızı - Ə.Kərimli satqınçılıq xarakterləri bir daha onu sübut edir ki, hər ikisi eyni bezin qırağıdır, fərq yoxdur.

Bir də dərk etməyə nə əqli, nə də əxlaqı imkan vermir. İllər boyu rusun, farsın, ermənənin, ingilisin, amerikalının, norveçlinin maşası, quyruqbulayanı ola, belə əxlaqsız və mənəviyyatını bütünlüklə qrantlara satan bir nakəsdən başqa nəyi gözləmək olar?! Pul müqabilində mitinqə qatılan 2800-3000 nəfər qaragüruhçunu, şəkil çəkdirib, ondan arayış alaraq, Avropaya "siyasi mühacir" statusunda getmək istəyən törtöküntüləri xalqla səhv salan S.Osmanqızı, Ə.Kərimli kimi nəsli, nəcabətini erməniləşdirən nacinsdən nə gözləmək olar? Əslində, ortada təəccüblənəcək heç nə yoxdur.

İngilisdilli əyalət tribunası olan S.Osmanqızını nə qədər vəhşi, faşist adlandırsaq da, ondan da ağır bir söz axtarışına çıxdım. Tapdığım söz insan yox, İBLİS oldu. Bəli, S.Osmanqızı iblisdir. Çünki hətta "Sarkisyan belə, etiraf edir ki, Xocalıda insanları bilə-bilə qırıblar"- deyirsə, bu iblis və onun kimilər - Orduxanlar, Fəxrəddinlər, Vidadilər, Yunuslar, Xədicələr və sırası, mənşəyi bu ünsürlər erməni təəssübkeşləri bunu anlamır. Çünki bu qərəzli, üfunət dolu, idbar, anti-Azərbaycan, yalnız qara-qura ilə məşğul olan bu iblis xislətlilərin hamısı Avropada oturub gecə-gündüz Azərbaycan əleyhinə aksiyalar təşkil etməklə hökumətin əleyhinə fikirlərlə daha çox qrant almaq davası aparmaqdadır. Və sonda bu satqınlar bilməlidirlər gec-tez xalqın qarşısında ən ağır cəzalarını alacaqlar, özü də bağışlanılmayan cəzalarını!

**Rəfiqə HÜSEYNOVA**

# Qənimət Zahidə "Palma" zopası

*Bu məxluq bir zaman "Üç Palma"da olduğu kimi, Fransada da şəbi-hicran deyir*



Anormal müxalifətin, anormal ünsürlərdən ibarət olan bir ovuc toplumunun hər zaman əsas işləri əxlaqa, milli-mənəvi dəyərlərə, milli mentalitetimizə yad olan mövqe sərgiləməkləridir. Onları ifşa edib, ağıllandırmağa, ən azı normal insan obrazında cəmiyyətə təqdim etmək də mümkün deyil. Çünki onların umacları el məsəlində deyildiyi kimi, əxlaqsızlıqdan, mənəviyyatsızlıqdan yoğrulub. Fikir verin, AXCP, Müsavat liderlərini və onların əlaltılarını rolunda çıxış edən trolları Azərbaycan ictimaiyyəti, media orqanları kifayət qədər ibrətamiz ifadələrlə, məsləhətlərlə islah etməyə çalışıb, ancaq faydası olmayıb. Bu üzdəniraq ünsürlər öz keyfiyyətsizliklərini hər fürsətdə nümayiş etdirməyə çalışıblar. Araşdırmalar zamanı bəlli olur ki, onları birləşdirən başlıca məqsəd xarici işbazların, Azərbaycana düşmən kəsilən maraqlı dairələrin ayırdıqları qrantlardır. Hansı ki, bu qrantlar olmasa, Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və onların xaricdəki "Söyüş qrup"ları yaşam tərzlərini itirər və nə internet televiziyaları, nə canlı yayımları, nə də saytları fəaliyyət göstərməz.

### *Qrant olmasa Qənimət Zahid bədbəxt ola bilər*

Xüsusilə, "Turan" adlı internet televiziya yaradıb, Azərbacanın milli və dövlətçilik maraqlarına zərbə vurmağı özünə peşə və mübarizə metodu seçən Qənimət Zahid bədbəxt günə qalar. Çünki Fransada ona qaşınagözünə aşiq olub, elə-belə yaşamağa və söyüş söyməyə yer ayırmayıblar. Çoxları Q.Zahidin hansı əlləm-qəlləm əməllərin və "yuvanın quşu" olduğunu yaxşı bilir. Yaxın keçmişdə onun nə qədər xəyanətlər etdiyi, çoxsaylı tərbiyəsiz işlərlə məşğul olduğunu da ictimai-siyasi prosesləri izləyən hər kəsə məlumdur. Birmənalı şəkildə mövqe ondan ibarətdir ki, Q.Zahid tüfeyli, içki düşkün, pula hərisin biridir. Bu məxluq "Azadlıq" qəzetinin baş redaktoru olarkən işi-peşəsi insanları şantaj etməklə əldə etdiyi pulları özü kimi əxlaqda olan Əli Kərimli, Azər Əhmədov və digərləri ilə eyş-işrət məclislərinə xərcləmək olub. Onun pula hərisliyi pul-para olanda Ə.Kərimliyə də atmaqdan çəkindirməyib. Yayılan məlumatlara görə, Soros Fondunun "Azadlıq" qəzetinə ayırdığı 175 min avro pulu AXCP sədri və Qənimət Zahid bölə bilməyiblər. Soros Fondu həmin pulu Qənimət Zahidin hesabına köçürüb. Pula sahib olduqdan sonra Q.Zahid Ə.Kərimliyə rədd cavabı verib. "Yurd" şefinin israrlı yazışması Qəniməti yola gətirə bilməyib. Ə.Kərimli onun ardınca Fransaya öz adamını da göndərib. Dava-dalaş əlbəyaxa davaya çevrilsə də, Q.Zahid pulu verməkdən imtina edib.

### *"Üç Palma" restoranında əxlaqsızlıq*

Q.Zahid bəzən o qədər içib bir növ açarını itirmiş ki, ictimai asayişi pozmaqla yanaşı, küçədən keçən qadınlara qarşı tərbiyəsizlik etməkdən də çəkinməyib. Belə ki, o, içkili olduğu üçün 2007-ci ilin mart ayında "Azərbaycan" Nəşriyyatının qarşısında Sevgiladə Quliyeva adlı qadına sataşmışdır. Dava-dalaşa polis də qarışmış və buna görə də, Q.Zahid məsuliyyətə cəlb olunmuşdur. Bu tərbiyəsiz və eyş-işrət düşkünü olan Q.Zahid Xocalı soyqırımı günü "Üç Palma" restoranında özbək qızları ilə eyş-işrət məclisi qurmaqla hansı əxlaqa və mənəviyyata sahib olduğunu da nümayiş etdirmişdir. Buna görə utanıb xəcalət çəkməkdən və ictimaiyyətdən üzr istəməkdənsə, Ə.Kərimli ilə birlikdə oyun qurub, ifşa olunduğu məclisin hakimiyyət tərəfindən təşkil olunduğunu uydurmuşdu. Hətta bir qədər də uzağa gedərək bildirdilər ki, guya Q.Zahidi döyərək, zorla əxlaqsız qadınlarla şəkillərini çəkmişdilər.

### *Qənimət Zahidin cibindən 8 min dollar çıxmışdı*

Başqa maraqlı məqam ondan ibarətdir ki, o zamanlar Q.Zahidin baş redaktor olduğu "Azadlıq " qəzeti maliyyə çətinliyi ilə üzləşdiyi barədə müxalif qəzetlərdə məlumatlar dərc olunurdu. Halbuki Q.Zahid "Üç Palma" restoranında fahişələrlə yaxalanarkən üzərindən 8 min dollar pul çıxmışdı. Bu isə onu sübut edir ki, Q.Zahid üçün aylıq maaşa göz dikən əməkdaşların üzləşdikləri maddi çətinlik əhəmiyyətsiz olub. Bu gün də bu məxluq eyş-işrətindədir. Bir zaman "Üç Palma"da tüfeyli olduğunu nümayiş etdirirdisə, bu gün Fransada şəbi-hicran deyir. Özünü erməni lobbisinə təslim etməklə, lazımi qədər pul-para qazanır. Parisdə sülənir, restoranlarda gün keçirir, övladlarını pullu məktəblərdə oxutdurur, mülk alır, kefi düşəndə yaxın ölkələrə səfərlər də edir. "Turan" adlı üfunət iyi verən qondarma internet telekanalizasiya da öz yeridə. Təbii ki, internet televiziyasının yayımını təşkil edib, ağlına deyil, ağızlarına gələni danışmaq havayı-müfəssəl deyil. Ayı haradasa 150 min yevro. Niyə də olmasın ki? Əgər Amerika Birləşmiş Ştatlarında öz evindən "Osman TV" adlı qondarma internet televiziyanın yayımına görə, ABŞ-ın qaranlıq dairələrindən S.Osmanqızı aylıq 100 min dollar alırsa, tüfeyli, eyş-işrət düşkünü olan Q.Zahid niyə də ki, S.Osmanqızından daha çox maliyyə vəsaiti almasın? Aldığı pula görə Azərbaycanın dövlət maraqlarına zərbə vurmağa hesablanan ittihamlar da səsləndirir, bəzən Ə.Kərimlinin, C.Həsənlinin canlı yayımlarını təşkil edib onlar vasitəsilə hədyanlar da səsləndirir. Ancaq nə deməsindən və ya hansı təhqiri söyləməsindən asılı olmayaraq Q.Zahidin adı üstündədir: Satqın və xəyanətkar, həm də tüfeyli, eyş-işrət düşkünü olan məxluq.

**İ.ƏLİYEV**

# İnsan hüquqlarının müdafiəsinin milli qanunvericiliyə transformasiyası

***Ümummilli Liderimiz Heydər Əliyevin dövlət quruculuğu fəaliyyətinin bütün mərhələləri və anları həm də Azərbaycan milli ideologiyasının yaranması, formalaşması, təbliği və təşviqi anları olmuşdur. O, gördüyü hər bir işi ideoloji cəhətdən əsaslandırmağı, onun fəlsəfi, elmi, siyasi mahiyyətini olduqca yığcam və məntiqi arqumentlərlə şərh etməyi dahiyanə bir ustalıqla bacarırdı.***

Milli təhlükəsizliyin təmin edilməsinə nail olmaq, onun daxili və xarici parametrlərini dəqiq müəyyənləşdirmək və onları uzlaşdırmaq Ulu Öndər Heydər Əliyev təliminin təməl prinsiplərindən biridir. Dünyəvi qloballaşma və modernləşmə prosesinin geniş vüsət aldığı bir dövrdə ümumi bəşəri inkişaf dinamikasından kənarda qalmaq olmazdı. Hindistanın görkəmli dövlət xadimi C.Nehrunun yazdığı kimi: "Bizim idealımız və məqsədimiz tarixi meyillərə zidd gedə bilməz". Dünyadan təcrid olunmaq milli təhlükəsizliyə zəmanət vermir. Odur ki, indiki dövrün qeyri-adiliyi və ondan irəli gələn tələblərlə hesablaşmaq lazım gəlirdi. Ulu Öndərimiz Heydər Əliyev müstəqilliyimizin, Azərbaycan dövlətçiliyinin təhlükə mənbələrini və ona qarşı mübarizə metodlarını müasirləri arasında daha aydın görürdü. Dahi Öndər Heydər Əliyev bütün fəaliyyəti boyu ideoloji mübarizə cəbhəsində bir anlıq fasiləyə, istirahətə yol vermədən daim döyüş və müdafiə mövqeyində sərvaxt dayanmışdı. Naşı adamlara elə gəlir ki, əgər düşmənin odlu silahları atəş açmırsa, deməli, onlar artıq susmuşdu. Xeyr, ideoloji cəbhənin döyüşçüləri gözə görünməsə də, onların təxribatçı silahı heç vaxt susmur. Əksinə, müstəqilliyimizi möhkəmləndirmək uğrunda xalqımızın hər bir uğuru düşməni daha da quduzlaşdırır, onları yeni-yeni ağlagəlməz vasitələrə əl atmağa sövq edir. Mürtəce dairələrin müstəqil Azərbaycanın nəinki yanacaq resurslarında, hətta onun ən adi nemətlərində belə maraqları var. Odur ki, Ulu Öndərimiz təkrar-təkrar deyirdi: "Dövlət - dövlətçiliyi qorumalıdır!" Ulu Öndərimiz Heydər Əliyevin bütün fəaliyyətinin başlıca qayəsini məhz bu ideya təşkil edir. Ölkənin hər bir vətəndaşı müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi üçün şəxsi məsuliyyət daşıyır. Bunun üçün ilk növbədə hər kəsdən milli həmrəylik tələb olunur. Ulu Öndərin tövsiyəsi belə idi: "Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır..." Təsadüfü deyil ki, Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub və ulu öndərimiz haqlı olaraq deyirdi: "Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir". Təsadüfü deyil ki, Dünya azərbaycanlılarının I qurultayında da Ulu Öndərimiz Heydər Əliyev ona məxsus müstəqillik, müasirlik və azərbaycançılıq ideologiyasının konturlarını bir daha dəqiqləşdirdi. "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır" fikrini söylədi və açıq bəyan etdi ki, "bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır". Dahi liderimiz bütün sahələrdə davamlı islahatların əsasını qoymaqla yanaşı insan hüquq və azadlıqlarına da böyük önəm verirdi. Təsadüfi deyil ki, Ulu Öndərimiz Heydər Əliyevin hakimiyyəti illərində insan hüquqları və azadlıqlarının təmini məqsədilə həyata keçirdiyi hüquqi islahatların ən mühümü məhz yaşamaq hüququnun təmin edilməsi oldu. Ali insanpərvərlik prinsiplərini rəhbər tutan Ümummilli Liderimizin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqinə moratorium qoyulması oldu. Daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırıldı və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edildi. Bu tarixi addım insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan rəhbərimizin gələcək nəsillərə misilsiz töhfəsi oldu və bütün dünyaya göstərdi ki, Azərbaycan hüquqi, demokratik dövlət quruculuğu yolunda inamla irəliləyir. Ulu Öndərimizin bu münasibətlə 1998-ci il 3 fevral tarixli müraciətində deyilirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ulu Öndərimiz Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ildən etibarən verilmiş əfv və amnistiya aktları ilə minlərlə məhkum azadlıqdan məhrumetmə yerlərindən buraxılaraq öz ailələrinə qovuşmuşdur. Cəmiyyətin inkişafı, insan hüquqları və azadlıqlarının təmin edilməsi üçün tamamilə yeni hüquq və məhkəmə sisteminin qurulması zəruri idi. Buna görə də dahi şəxsiyyətin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlanmış və 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilmişdir. Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqlarının təmin edilməsi, ölkəmizin Avropa Şurasına inteqrasiyasını sürətləndirmək məqsədilə Ulu Öndərimiz tərəfindən bir sıra mühüm Fərman və Sərəncamlar imzalandı, hüquqi islahatların həyata keçirilməsi üçün "Azərbaycan Respublikası Prezidentinin yanında hüquqi islahat komissiyasının yaradılması haqqında" sərəncam verildi. Həmin komissiya "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar hazırladı. Beləliklə, ölkəmizdə məhkəmə-hüquq sistemində köklü islahatların aparılmasına imkan açıldı. Ulu Öndərimizin 2002-ci il 22 iyun tarixli fərmanı ilə Konstitusiyada dəyişikliklər edilməsi üçün referendum təyin olundu. Fərmanda göstərilirdi ki, respublikamızın "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulması, ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsi, seçki sisteminin təkmilləşdirilməsi və digər hallarla əlaqədar yeni müddəaların Azərbaycan Respublikası Konstitusiyasında əks etdirilməsi zəruridir. Referendumun nəticələrinə müvafiq olaraq Konstitusiyaya edilən düzəlişlər insan hüquqları və azadlıqlarının qorunmasını daha da gücləndirdi, vətəndaşlara məhkəmələrə, ombudsmana, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verdi, ölkənin seçki sistemini daha da təkmilləşdirdi. Sözsüz ki, bütün bunlar Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu böyük islahatlardır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Bu tarixi addım insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan rəhbərimizin gələcək nəsillərə misilsiz töhfəsi oldu və bütün dünyaya göstərdi ki, Azərbaycan hüquqi, demokratik dövlət quruculuğu yolunda inamla irəliləyir. Ulu Öndərimizin bu münasibətlə 1998-ci il 3 fevral tarixli müraciətində deyilirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm".



Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

25 fevral



# DİQQƏT: Koronavirusa yoluxmamaq üçün bunlara mütləq əməl edin!



***"Bildiyiniz kimi 2019-cu ilin dekabr ayından başlayaraq koronavirus dünyada yayılıb. Bütün dünyada bu xəstəliyə qarşı profilaktik tədbirlər həyata keçirilib. O cümlədən Azərbaycanda da Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən bütün profilaktik tədbirlər həyata keçirilir". Bu SİA-ya açıqlamasında Respublika Gigiyena və Epidemioliga Mərkəzinin Baş direktorunun müavini Afaq Əliyeva deyib.***

O bildirib ki, bizə həmsərhəd olan İran İslam Respublikasında da xəstəlik qeydə alınıb: "Bununla əlaqədar olaraq ümumilikdə Azərbaycanın bütün sərhəd keçid məntəqələrində önləyici tədbirlər gücləndirilib. Bü gün üçün Azərbaycanda vəziyyət tam sabitdir".

A.Əliyeva qeyd edib ki, bu, qripə bənzər bir xəstəlikdir: "Xəstəliyin simptomları qripdə olduğu kimidir. Hər bir insan çalışmalıdır ki, insanların sıx toplaşdığı yerlərdən uzaq olsun. Hər hansı şübhəli xəstə görürlərsə, qripə yoluxmuş xəstə belə olsa o şəxsdən bir qədər uzaq olmaq və mümkün qədər yaxın təmasdan çəkinmək lazımdır. Evə gəldikdə isə ilk əvvəl əllərinizi sabunla təmiz yumalı, spirt tərkibli preparatlardan istifadə edərək əllərinizi dezinfeksiya etməlisiniz. Məktəblərdə, təhsil müəssisələrində, iş yerilərində fasilələr zamanı otaqların havasını dəyişilməsi, dezinfeksiya tədbirlərinin gücləndirilməsi vacibdir".

Baş direktorunun müavini vurğulayıb ki, əgər evdə xəstə varsa, yataq rejiminə riayət etməli və mütləq şəkildə həkimin təyinatı ilə müalicə olunmalıdır: "Evdə ona qulluq edən şəxslər maskalardan istifadə etməlidir. Xəstə üçün istifadə olunan qab-qacaqları, əşyaları ayırmalıdır. Xəstə otaqdan çıxdıqda otağın havası dəyişdirilməli, dezinfeksiya edici preparatlarla nəm üsulla evləri dezinfeksiya etmək lazımdır. Çirikli əllərlə ağıza, buruna, gözə toxunmaq olmaz. Bu elementar qaydalara hər bir kəs riayət etməlidir. Ümumilikdə xəstə insan özü hökmən tibbi maskalardan istifadə etməlidir. Xroniki ağciyər və digər xəstəlikləri olan insanlar arasında hər hansı bir əlamət görülüdükdə, hətta qripə belə şübhə olarsa, onların yoxlanılması vacibdir. Yenidən təsdiq edirəm ki, bu gün üçün ölkədə vəziyyət tam sabitdir, koronavirusa şübhəli heç bir xəstə yoxdur və müşahidə tədbirləri davam etdirilir".

*Aysel Məmmədova*

## Rayan Giqqz Bakıya gəlib

Futbol üzrə "Avro-2020"nin A qrupunda Türkiyə və İsveçrə millilərinə qarşı oyunlarını Bakı Olimpiya Stadionunda keçirəcək Uels milli komandasının nümayəndələri Bakıda səfərdədir. baş məşqçi Rayan Giqqz, media və marketinq meneceri İan Guiyn Hughes, təhlükəsizlik departamentinin rəisi Qrant Aştson Briggs və kit menecer David Tudor Griffitsin daxil olduğu nümayəndə heyəti hotellərə və stadionlara baxış keçirəcək, infrastrukturla tanış olacaqlar.

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov Uels millisinin baş məşqçisi R.Giqqzlə görüşüb. Görüşdə "Avro-2020"nin Bakıda keçiriləcək oyunları ilə bağlı fikir mübadiləsi aparılıb, qarşılaşmaların yüksək səviyyədə təşkil olunacağına əminlik ifadə olunub. Xatırladaq ki, E.Məmmədov bir müddət əvvəl Bakıda səfərdə olmuş Türkiyə millisinin baş məşqçisi Şenol Güneşlə də görüşmüşdü.

## Bir sutkada Çində 150 nəfər koronavirusdan ölüb

Çində ötən sutka ərzində daha 409 nəfərin koronavirusun yeni növünə (COVID-19) yoluxduğu, 150 nəfərin isə bu virusdan öldüyü təsdiqlənib. Beləliklə, indiyədək virusa yoluxanların sayı 77 min 262, ölənlərin sayı isə 2595 nəfərə çatıb.

Çin Dövlət Səhiyyə Komitəsinin yaydığı məlumatda deyilir ki, virusa yoluxmaqda şübhəli bilinənlərin sayı 3434 nəfər, sağalıb xəstəxananı tərk edənlərin sayı isə 24 min 803 nəfərdir.




# D vitamini çatışmazlığı şəkərli diabet yaradır!



Mütəxəssislər D vitamininin orqanizmdə çatışmazlığının əsas əlamətlərini açıqlayıblar. Milli.Az xəbər verir ki, bu vitaminin çatışmazlığı ilə osteoporoz, 2-ci tip şəkərli diabetə və yüksək qan təzyiqi xəstəlikləri artır. Orqanizmdə D vitamini əsasən qış aylarında çatışmır. Çünki onun əsas mənbəyi günəş şüasıdır. Bu əlamətlər əsasən sümüklərdəki ağrılarla, sərt oynaqlarla, həddindən artıq artıq çəki, başdakı tərləmə,bağırsaq problemləri və depressiya ilə özünü bürüzə verir. ABŞ-ın Boston Universitetinin mütəxəssisləri lazımi miqdarda D vitamini əldə etmək üçün insanın gündə 15-20 dəqiqə günəşdə olmasının vacibliyini vurğulayıblar.

## "El Klassiko"nun baş hakimi açıqlandı

La Liqanın 26-cı turunda keçiriləcək "Real" - "Barselona" oyununun baş hakimi müəyyənləşib. Qol.az "Marca"ya istinadən xəbər verir ki, "El Klassiko" Miqel Mateu Laosa həvalə olunub. Qeyd edək ki, "Real" -"Barselona" görüşü martın 1-i oynanılacaq.




## Keçən il Azərbaycana 547 avtobus gətirilib

2019-cu ildə Azərbaycana 547 ədəd avtobus idxal olunub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ötən il, həmçinin ölkəyə 43 min 156 minik avtomobili və 3780 yük avtomobili gətirilib.



## ELAN

8 saylı Binəqədi birinci Seçki Dairəsinin 36 saylı məntəqə seçki komissiyasının möhürü itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat ixtisası üzrə III kurs tələbəsi Şərifli Səbinə Səfər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**